

# Azərbaycanda 13 siyasi partiya ləğv olundu

*Azərbaycanda daha iki siyasi partiya - Vahid Azərbaycan Milli Birlik və Qorqud partiyaları ləğv olunub. "Unikal" xəbər verir ki, bu barədə Ədliyyə Nazirliyi dünən qərar qəbul edib. Nazirliyin məlumatına görə, Vahid Azərbaycan Milli Birlik Partiyası ləğv olunması ilə bağlı qərar qəbul edib və buna dair aidiyyəti sənədləri...*

Səh.4


UNIKAL

№30 (2164) 18 avqust 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




# "BMT fiaskosu"ndan sonra Ermənistanı növbəti zərbə gözləyir

Səh.9



# Elman Rüstəmov xaricdəki biznesini böyüdür

## Sabiq baş bankir də digər iri məmurların yolu ilə gedir

*Azərbaycandakı bir sıra iri məmurların ölkədən kənarda böyük biznes şəbəkəsinə sahib olduğu kimsəyə sirr deyil. Onların xaricdə öz ailə üzvlərinin, yaxınlarının adına şirkətlər açması adi hala çevrilib. Bu sırada artıq Elman Rüstəmov da var - o, hazırda Baş nazirin müşaviridir, uzun müddət isə Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinə rəhbərlik edib. Əslində Rüstəmov hələ AMB sədri olarkən də onun ölkədən kənarda biznesinin olduğu məlumdur. Lakin gələn məlumatlar ölkənin baş bankının rəhbərliyindən kənarlaşdırıldan sonra onun xaricdəki biznesini gücləndirməyə və genişləndirməyə qərar verdiyini göstərir. Belə ki, bir neçə gün öncə yerli mediada Elman müəllimin kiçik qızı Süsən...*

Səh.5

## "Azərbaycanda partiyalar ideologiya deyil, liderlər ətrafında yaradılıb"



*"Siyasi partiyalar haqqında" qanuna edilən dəyişikliklərdən sonrai siyasi düşərgədə yenidən formalaşma prosesinə start verilib. Artıq bir çox patiya özünü buraxıb, bəziləri isə yenidən qeydiyyat prosesində siyasi həyatının son dönəmlərini yaşamaqdadır. "Unikal"a müsahibə verən Ədalət Partiyasının sədr...*

Səh.4

## "Əks halda Azərbaycan ən sərt şəkildə cavab verəcək"



*"Ermənistan onun siyasətini müdafiə edən bir neçə dövlətin köməyi ilə birlikdə BMT Təhlükəsizlik Şurasına müraciət edərək Azərbaycana qarşı hər hansı siyasi qərarın qəbul olunacağına ümid edirdi". Bunu "Unikal"a açıqlamasında deputat Aydın Mirzəzadə deyib. O bildirib ki, nəticə ermənilərin gözlədiyi kimi olmadı:*

Səh.5

## Qarabağ erməniləri Azərbaycanın tolerant ölkə olduğunu unutmamalıdırlar!




*Ölkəmiz azsaylı xalqlarla birgəyaşayışın Azərbaycan modelini yaratmış bir dövlət kimi dünyada tanınır. Dünya ölkələri Azərbaycanın tolerantlıq nümunəsini daim örnək göstərir, digər xalqları bu dəyərlərdən nümunə götürməyə səsləyir. Bununla belə hələ də ermənilər Qarabağda yaşamağı özlərinə təhdid kimi qəbul edir, dünyaya Azərbaycan xalqı ilə...*

Səh.11

# "Hansısa məmur haqqınızı yeyir susursunuz, amma məşhurlar..." - Nura Suri

***"Bir aydınlıq gətirim bəzi dərrakəsiz, qanacaqsızlara. Məşhurlara, ələxsus da müğənnilərə qarşı aqresiyanın kökü paxıllıq və qorxudur. Evdə ərinə, işdə müdirinə, hakimiyyətə deyə bilmədiyini məşhurlara deyir. Arzu edib, əldə etmədiyini məşhurlarda görəndə "elə bil onun arzusunu biz əlindən almışıq kimi" zənn edir".***



"Unikal" xəbər verir ki, bu sözləri müğənni Nura Suri sosial şəbəkədə yazıb. Müğənni tanınmış simalara tənqid yazan sosial şəbəkə istifadəçilərinə cavab verib: "Müğənni sənə nə pislik edib, ay zavallı? Müğənni bir mahnını almaq üçün nə qədər pul ödəyir, aranjiman etdirir, klip çəkdirir, geyinib-keçinir. Hansı biriniz gəlib qapısını döyüb mahnılarını sevdiyiniz bir müğənniyə maddi dəstək olmusuz ki, indi də "sizi xalq bu səviyyəyə gətirib" deyirsiniz?

Müğənni millət vəkilidir? Səs verib seçmisiniz? Bu qədər şadlıq sarayları, restoranlar və sair müğənnilərindir? Hansısa məmur sizin haqqınızı yeyir susursunuz, amma məşhurlar - hansı ki, öz əziyyəti, zəhməti ilə sizin şənliklərdə sizə xoş əhval-ruhiyyə bəxş edir, söyüb batırırsınız. Kimə maddi köməklik lazım olur müğənnilər, blogerlər yardım edir ilk növbədə (bütün sosial verlişlərdə baxın). Hələ görmədim ki, o verilişlərin birində (göz önündədir deyə misal çəkirəm, görünməyən yardımları demirəm heç) hansısa məmur kiməsə yardım etsin. Tək-tük iş adamları və məşhurlar. Çox bədbəxt görünürsünüz belə düşüncəsiz olduğunuz üçün".

# "Bir azdan qızlarımız ərə getməyə kişi tapmayacaq"



***"TikTok-da hamı olub avtoritet, lotu... Özünüzə gəlin. Siz kimsiniz, kənarda min hoqqadan çıxanlarsınız. Yaxşı ki, TikTok çıxdı, oturursunuz burada. Əyləş ədəbinlə pulunu qazan. Şəhərdə bir tiktoker gəzir, hamı üstünə qaçır. Heç müğənnilərə onu etmirsiniz. Özünüzə gəlin. Cinsi azlıqlara dəstək olursunuz, canlılarında 10-15 min adam olur. Görün son günlər nə qədər cinsi azlıq var. Bu qədər olmaz. Dünyanın heç bir yerində bu qədər cinsi azlıq yoxdur. Bu gün, sabah qızlarımız ərə getməyə kişi tapmayacaq. Kimsə buna "bəsdi" desin".***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri müğənni Günel Ələkbərova TikTok-da canlı yayımda deyib. İzləyiciləri ilə mübahisə edən ifaçı bunları əlavə edib: "Günü-gündən sayı çoxalır. Çünki baxırlar ki, cinsi azlıqlara nə qədər hədiyyələr gəlir, tərəflərini tuturlar. Nə olub? Baboşu (tiktoker, bir neçə gün əvvəl həbs edilən Babək Cabbarov - red.) ilahiləşdirdiniz, həbs olunanda hamınız paylaşdınız. Qazilər canlı açanda heç 200 nəfər olmur. Cinsi azlıq canlı yayım açanda 10 mini keçir. O həddə gəlib ki, normal oğlanlar da özünü TikTok-da elə formada aparır ki, hədiyyə göndərsinlər. Başlayır göbək rəqsi etməyə. Durub şərhlərdə "artistlik" edirsiniz, pisləyirsiniz. Amma onların canlısına girənlər də sizlərsiniz. TikTok cinsi azlıqlardan ibarətdir. Durub hələ elələri camaata dərs keçirlər. Onları çoxaldan insanlardır. Əksəriyyəti də kasıb uşaqlardır, pulsuzluqdan bunu edirlər.

Mənim dostum ola bilər. İnsanların orientasiyaları arasında seçim etmirəm. Amma bu qədər olmaz. Bitirin də bu söhbətləri, Baboşu tutublar. Hamı canlı açır, onun fotosunu qoyur. Özünüzə gəlin. TikTok bağlansın deyirlər. Niyə? Çoxları oturub pulunu qazanır. Bəzi "ayasürüşkənlər" də yığışıb, oturur canlıda pul qazanır. Amma cinsi azlıqları qaldırıb dağ başına qoymayın. Dediyim sözlərin arxasında dururam. TikTok əyləncə platformasıdır, söyüş, cinsi azlıq yeri deyil. Bura indi yaşlıdan tutmuş, uşağa qədər hamı girir. Azərbaycanlıyam, istəmirəm ölkəm bu cür olsun. Telekanallarda elə kişi aparıcılar var ki, onlar da cinsi azlıqdır. Biz bunu bilirik. Kişi görünüşündədirlər, amma əslində elədir. Amma bəzi cinsi azlıqları efirə buraxmırlar, senzura var. Gizliləri demirəm".

# Oksana ARB ilə razılaşdı

***Rəqqasə-aktrisa Oksana Rəsulovanın sahibi olduğu "OksiMedia" şirkəti yeni serial çəkir.***



Axşam.az xəbər verir ki, "Sara" adlanan ekran işinin ssenari müəllifi İlqar Fəhmidir. Bir müddətdir çəkilişləri başlayan serialda Oksana ilə yanaşı Xalq artisti Valeh Kərimov, aktyor Ziya Ağa və başqaları rol alır. Serialın yaradıcı qrupunu Azərbaycan, Pakistan və Birləşmiş Ərəb Əmirliklərindən olan heyyət təşkil edir.

Oksana serialının yayımlanması üçün ARB telekanalı ilə razılaşıb. Ekran işi yeni mövsümdən sözügedən kanalda tamaşaçıların qarşısına çıxacaq.

Qeyd edək ki, Oksana hazırda "Xəzər TV"də aparıcı kimi efirə çıxır.

# İradə İbrahimova: "Bəzən "hər şey nə qədər pisdir" dediyim vaxtlar olur"



***"Gül fikirləşən gül baxçalarında, tikan fikirləşən isə tikanlıqda olar. Allah hamımızın dadına çatsın".***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri müğənni İradə İbrahimova instaqram hesabında yazıb. Sənətçi sözlərinə belə davam edib:

"Bəzən bir çox neqativi bir arada yaşayıb, "hər şey nə qədər pisdir" dediyim vaxtlarda özüm-özümə pıçıldadığım sözləri sizlərlə də paylaşmaq istəyirəm: İradə, hər şey pis belə olsa, sən yaxşı olanlardan ol. Yaxşı qal, gözələ yönlən, gözəl düşün. Bağlanan qapıya deyil, açılan pəncərəyə bax. Əhvalı yüksək tutmağın çox çətin olduğunu bilirəm. Amma yaxşı insan olmağın da başqa yolu yoxdur".



## Ağ Evdən Azərbaycan və Ermənistanla bağlı açıqlama

***"Ağ Ev Azərbaycan və Ermənistana diplomatiya yolu ilə sülh əldə etməkdə kömək etməkdə davam edir".***

"Unikal" xarici mediaya istinadən xəbər verir ki, bunu Ağ Evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi keçirdiyi brifinqdə deyib.

"Biz müxtəlif səviyyələrdə dialoq və diplomatiya səviyyəsini saxlamışıq və bu, Milli Təhlükəsizlik Şurası, cənab Ceyk Sallivan və cənab Con Faynerdən tutmuş Dövlət Departamentinə qədər davam edir. Demək istədiyim odur ki, biz diplomatiya yolu ilə daha yaxşı nəticə əldə edə biləcəyimizi görmək üçün bununla mütəmadi məşğuluq", - deyə Kirbi qeyd edib.

***Nuranə Abbasova***

## Ceyhun Bayramov Ərəbistan səfiri ilə görüşüb



***17 avqust tarixində xarici işlər naziri Ceyhun Bayramov Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Həməd bin Abdullah bin Səud bin Xudeyri diplomatik fəaliyyətinin bitməsi münasibətilə qəbul edib.***

Xarici İşlər Nazirliyindən "Unikal"a verilən xəbərə görə, nazir Ceyhun Bayramov səfir Həməd bin Abdullah bin Səud bin Xudeyrə fəaliyyəti dövründə Azərbaycan-Səudiyyə Ərəbistanı münasibətlərinin inkişafına verdiyi töhfəyə, peşəkar fəaliyyətə görə dərin minnətdarlığını bildirib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüş zamanı siyasi, iqtisadi, enerji, humanitar, turizm sahələri üzrə ikitərəfli əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlığı Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Görüşdə Azərbaycan və Səudiyyə Ərəbistanı Krallığı arasında siyasi əlaqələrin mükəmməl səviyyədə olduğu qeyd olunaraq, iqtisadi-ticarət sahəsində əməkdaşlığın inkişafında əldə olunan nailiyyətlərin məmnunluq doğurduğu vurğulanıb. Həm 30 ilə yaxın işğal dövründə, həm də postmünaqişə dövründə Səudiyyə Ərəbistanının ölkəmizə dəstəyi yüksək qiymətləndirilib.

Yüksək səviyyəli qarşılıqlı rəsmi səfərləri xatırlayan nazir, Səudiyyə Ərəbistanının xarici işlər naziri ilə keçirilmiş görüşə, habelə beynəlxalq tədbirlər çərçivəsində həmkarı ilə olan təmaslarına məmnunluqla istinad edib.

Səfir Həməd bin Abdullah bin Səud bin Xudeyr iki ölkə arasında əlaqələrin inkişafından və son zamanlar həyata keçirilən işlərdən bəhs edib. Səfir Azərbaycandakı fəaliyyəti dövründə ona göstərilmiş dostluq və əməkdaşlıq münasibətlərinə görə öz minnətdarlığını bildirib.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran regional xarakterli məsələlərə dair fikir mübadiləsi aparıblar.

# Korrupsioner məmurlara böyük şok

## Rüşvət və yeyinti yolu ilə qazandıqları pulları ölkədən çıxarmaq istəyənlərə bəd xəbər var



***Azərbaycan Mərkəzi Bankı (AMB) "Azərbaycan Respublikasının rezidentlərinin xarici valyutada, habelə qeyri-rezidentlərin milli və xarici valyutada əməliyyatlarının aparılması Qaydaları"na dəyişiklik edib. Yeni qaydalara əsasən, Azərbaycanda emissiya olunmuş ödəniş kartları vasitəsilə rezident fiziki şəxslər tərəfindən ölkə hüdudlarından kənarda təqvim ayı ərzində 10 min dollar ekvivalentinədək məbləğdə pul vəsaitinin nağdlaşdırılması mümkün olacaq. Yəni, Azərbaycan bankından alınmış kart sahibi xaricdə olan zaman ay ərzində 10 min dollardan artıq məbləği nağdlaşdıra bilməz.***

Digər dəyişikliyə əsasən, fiziki şəxslərin şəxsi məqsədlər üçün ölkə xaricinə köçürdükləri məbləğlər üzrə gündəlik limitlər ləğv edilərək aylıq hədlər ilə əvəzlənib. Bu hallarda 20 min dollaradək ödəniş həyata keçirmək mümkün olacaq. Eyni zamanda, bu xərc vətəndaşların təkcə özünün deyil, digər şəxslərin də xaricə səfərləri ilə bağlı nəqliyyat və otel xərclərini ödəmək imkanı kimi də nəzərdə tutulub.

Bu qərar cəmiyyətdə birmənalı qarşılanmayıb. Məsələn, iqtisadçı ekspert Natiq Cəfərli deyib ki, bu qaydalar çirkli pullarla, korrupsiya ilə mübarizədə effektli ola bilməz. Sitat: "Məmurlar, onlara bağlı iş adamları istənilən həcmdə vəsaiti ölkədən çıxarmağın yollarını yaxşı bilirlər, bu addımlar onlara təsir etməyəcək..."

Lakin digər ekspertlər əksini düşünür. Misal üçün, iqtisadçı Eldəniz Əmirov deyib ki, plastik kartdan xarici ölkədə pul çıxaran zaman ayda 10 min dollarlıq limitin qoyulması rezonans doğurmamalıdır: "Yeni qaydalar 30-100 min dollar arasında vəsait çıxarmaq istəyənlərə əngəl yaratmır. Nəzərə alsaq ki, bu məbləği 5-10 nəfər və ya 5-10 kart vasitəsilə xaricə daşımaq və pulu kartdan çıxarmaq mümkündür, bu formada problemi aradan qaldırmaq olar. Lakin milyonlarla ölçülən vəsaiti çıxarmaq asan deyil. Bunun üçün xeyli sayda adam lazımdır. Bu isə dövlət vəsaitlərini qəsb edənlərə qarşı mübarizədə effektiv silah ola bilər..." (ayna.az)

Başqa bir iqtisadçı - Elnur Əsədov da bildirib ki, bəzən çirkli və qaranlıq fəaliyyətlə məşğul olan şəxslər, eləcə də dövlət vəsaitlərini mənimsəyən məmurlar əldə etdikləri gəlirləri xaricə çıxarmağa çalışırlar: "Onlara görə, bu addım özünü sığortalamaqdır. Bundan sonra kifayət qədər maneələrlə qarşılaşacaqlar. Düşünürəm ki, bu yenilik sadə əhalinin maddi durumuna ciddi təsir etməyəcək".

Qeyd edək ki, Azərbaycanda rüşvət və korrupsiyaya bulaşmış məmurların çirkli yollarla qazandıqları pulları müxtəlif şəkildə ölkədən çıxardıqları kimsəyə sirr deyil. Bunu həmin məmurların xüsusilə Avropada özlərinə dəbdəbəli mülklər alması, biznes qurması da təsdiqləyir. Sözügedən tendensiyanın xüsusilə son illərdə daha da gücləndiyi iddia edilir. Səbəb isə axır bir neçə ildə çox sayda məmurun rüşvət və korrupsiya əməllərinə görə həbs, əmlaklarının isə müsadirə olunmasıdır.

O da şübhə doğurmur ki, qanunsuz əməllərə qurşanmış vəzifəli şəxslərin Azərbaycandan külli miqdarda vəsait çıxarmasında həlledici xaricdə mal-mülk, biznes sahibi olmaq deyil. Bu eyni zamanda həmin vəzifəli şəxslərin öz kirli qazanclarını qorumaq istəyindən yaranır. Bir sıra məmurlar nə vaxtsa cəzalandırılma növbəsinin onlara da çatacağından ehtiyatlanır və qabaqdangəlmişlik edərək sərvətlərinin önəmli hissəsini ölkədən çıxarırlar.

Yazdıqlarımızı dolayı yolla da olsa təsdiqləyən bir nüansı xatırlatmaq kifayətdir: tutaq ki, hansısa icra başçısı anti-korrupsiya əməliyyatı nəticəsində saxlanılır, barəsində istintaq aparılır, onun çirkli üsullarla qazandığı əmlakların siyahısı müəyyənləşdirilir. Əksər hallarda həmin siyahının həbs olunmuş vəzifəli şəxsin bütün varidatını əhatə etdiyi şübhə doğurur. Hər kəs düşünür ki, sözügedən məmur daha böyük sərvətin sahibidir - uzun illər yüksək post tutub, onmilyonlarla manatlıq büdcə vəsaiti üzərində sərəncam vermək səlahiyyəti daşıyıb, həmin onmilyonlarla manatın mühüm qismini isə müxtəlif yollarla (məsələn, qeyri-şəffaf satınalma müsabiqələri, tenderlər yolu ilə) mənimsəyib, hər ay tabeliyindəki şəxslərdən, idarə, müəssisə rəhbərlərindən tutmuş vətəndaşlaracan külli miqdarda "haqq", rüşvət alıb. Elə bunları nəzərə alıb gözəyarı hesablama aparsaq həmin vəzifəli şəxsin yalnız bir ildə kirli qazancının aşkarlanmış sərvətindən qatbaqat çox olduğu qənaətinə gəlmək mümkündür.

Bəs belədə həmin "qazanc" hardadır?

Əlbəttə ki, böyük ehtimalla, ölkədən kənarda!

Məhz bu reallığın fonunda "Azərbaycan Respublikasının rezidentlərinin xarici valyutada, habelə qeyri-rezidentlərin milli və xarici valyutada əməliyyatlarının aparılması Qaydaları"na dəyişikliyi müsbət qiymətləndirən iqtisadçı ekspertlərlə razılaşmaq olar. Haqqında danışılan dəyişiklik korrupsioner, rüşvətxor məmurlar üçün ciddi mənada qanqaraçılıq yaradacaq, çirkli pulları xaricə daşımaq baxımından onların işini çətinləşdirəcək.

Hər halda, ümid edək ki, məhz belə olacaq, əks təqdirdə, həmin dəyişikliyin daha çox sadə vətəndaşların əl-qolunu bağlamağa hesablandığını düşünənlər haqlı çıxacaq ki, bu da cəmiyyətdə boş yerə növbəti narazılıq yaratmaqdan başqa bir işə yaramayacaq.

***Sənan Mirzə***

# “BMT fiaskosu”ndan sonra Ermənistanı növbəti zərbə gözləyir

***Xəbər verdiyimiz kimi, BMT Təhlükəsizlik Şurasında (TŞ) Azərbaycanın Qarabağ bölgəsində vəziyyətə dair müzakirələr olub. Müzakirələrdə TŞ-nin daimi və müvəqqəti üzvləri, BMT nümayəndələri, o cümlədən Türkiyə, Azərbaycan və Ermənistan təmsilçiləri çıxış ediblər.***

BMT TŞ-də müzakirələr Ermənistan diplomatiyasının tam iflası ilə nəticələnib. Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev qurumun Təhlükəsizlik Şurasının iclasında çıxışı zamanı konkret faktlarla qarşı tərəfin təxribat xarakterli əməllərini və əsassız iddialarını ifşa edib.

Xarici İşlər Nazirliyi (XİN) də müzakirə ilə bağlı rəsmi Bakının mövqeyini bəyan edib. Qeyd olunub ki, Ermənistanın BMT Təhlükəsizlik Şurasından növbəti dəfə öz şantaj kampaniyası üçün istifadə etmək cəhdi uğursuzluğa düçar oldu. Ermənistanın sözügedən ali orqanı bu cür manipulyasiya və istismar etmək səyləri post-münaqişə dövründə normallaşma gündəliyinin irəli aparılması baxımından qeyri-məhsuldar olmaqla yanaşı, son dərəcə destruktivdir. Bildirilib ki, Azərbaycan Ermənistanın məsələlərin həll yolunun konstruktiv, qarşılıqlı fəaliyyət, habelə beynəlxalq hüquq normalarının və bu çərçivədə götürülmüş öhdəliklərin vicdanla yerinə yetirilməsindən keçdiyini nəhayət ki, anlayacağına ümid edir: ”BMT Təhlükəsizlik Şurasının çoxsaylı üzvləri tərəfindən vurğulandığı kimi, regionda sülh və sabitliyin əsası həm sözdə, həm də əməldə suverenliyin və ərazi bütövlüyünün tanınmasıdır. BMT Təhlükəsizlik Şurasının üzvü olan bir neçə dövlətin, eləcə də Türkiyənin Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin ehtiyaclarını ödəmək üçün məhsulların çatdırılması ilə əlaqədar xüsusilə Ağdam-Xankəndi yolu olmaqla, Azərbaycan tərəfindən təklif olunan bütün marşrutların fəaliyyət göstərməsi ilə bağlı səmimi dialoq və vicdanlı qarşılıqlı fəaliyyətin zəruriliyi barədə verilən bəyanatları yüksək qiymətləndiririk.

Müzakirələr, Azərbaycanın ”Ağdam-Xankəndi” yolundan istifadə təklifinin beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılandığını və yüklərin Azərbaycanın Qarabağ bölgəsinə qanuni və şəffaf şəkildə çatdırılmasını təmin etmək üçün Ermənistanın yaratdığı manеələrin qəti şəkildə aradan qaldırılmasının labüdlüyünü bir daha göstərdi. Bundan başqa, bəzi üzv dövlətlər tərəfindən Azərbaycanın legitim təhlükəsizlik narahatlıqlarının etirafı regionda müəyyən çağırışların aradan qaldırılması istiqamətində perspektivli addımdır.

Azərbaycanın müzakirələrdə qeyd etdiyi kimi, ölkəmiz Ermənistana iki ölkənin bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət əsasında sülh təklif edib. Digər tərəfdən, Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin Azərbaycan Konstitusiyasında nəzərdə tutulmuş, habelə Azərbaycanın tərəfdar çıxdığı insan hüquqları üzrə bütün müvafiq beynəlxalq mexanizmlərə uyğun olaraq, bütün hüquq və azadlıqlarını təmin etməklə bərabərhüquqlu vətəndaş kimi reinteqrasiya siyasətini aparır. Hər iki istiqamətə sadiq olduğumuz kimi, suverenliyimizi və ərazi bütövlüyümüzü BMT Nizamnaməsində və beynəlxalq hüquqda təsbit edilmiş bütün qanuni vasitələrlə qorumaqda da əzmliyik.

Azərbaycan normallaşma gündəliyinin irəli aparılmasında həqiqətən maraqlı olan və bununla da regionda çoxdan gözlənilən sülh və sabitliyə nail olmaq üçün öz töhfəsini vermək istəyən, habelə bu istiqamətdə müvəffəq olan bütün tərəflərlə konstruktiv qarşılıqlı fəaliyyətə sadiqdir”.



Məsələylə bağlı fikirlərini “Unikal”la bölüşən keçmiş xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov deyib ki, bu tədbir hər halda Ermənistan ictimaiyyəti üçün yaxşı bir dərs oldu. Onun qənaətincə, 44 günlük müharibədən sonra ermənilər ikinci dəfə güclü zərbə aldılar. Bu, onlar üçün faydalı olmalıdır və reallıqlara qayıtmalıdırlar. Eks-nazir bildirib ki, BMT Təhlükəsizlik Şurasının Qarabağla bağlı sessiyasının üç növ nəticəsi ola bilərdi: ”Qətnamə qəbul oluna bilərdi, sədrin çıxışı oxuna bilərdi və ya birgə bəyanat. Biz gördük ki, bunların heç biri olmadı. İstisna olunmur ki, müxtəlif nümayəndə heyətlərinin mətbuat üçün açıqlamaları ola bilər. Amma bu, rəsmi nəticə hesab oluna bilməz. Bu tədbirin ermənilər tərəfindən təşkil olunması təəccüb doğurur. Çünki bu cür tədbirlərin hazırlanması istənilən ölkədən tələb edir ki, orda iştirak edən ölkələrin mövqeləri bu və ya digər şəkildə öncədən öyrənilsin, onlarla iş aparılsın və s. Çıxışlarda gördük ki, Ermənistanın iddiaları demək olar ki, heç kim tərəfindən dəstəklənmədi. Çünki bu yalanı dəstəkləmək də mümkün deyil. Müxtəlif çıxışlar olub, fikirlər səslənib, amma ermənilərin tezisləri heç bir dəstək almadı. Dəstək də ala bilməzdi. Çünki yalanın üzərində qurulmuş hansısa şouya inanmaq olmaz. İndi informasiya zamanəsidir. Təkcə ermənilər belə fikirləşir ki, hamını aldatmaq olar”.

Politoloq bundan sonra Ermənistanın daxilində siyasi proseslərin daha fəal olacağını qeyd edib: ”Artıq Nikol Paşinyanı ittiham edirlər ki, o, qəsdən belə edərək mənfi nəticənin alınmasını istəyib və ondan sonra danışıqlarda guya ki, Azərbaycana hansısa güzəştlər eləsin. Əminəm ki, bu tezisləri indi Paşinyana qarşı müxalifət istifadə edəcək.

Mən bilirdim ki, onlar qətnaməyə nail ola bilməzlər. Gözləyirdik ki, orada sadəcə sədrin ortaq çıxışlarını ümumiləşdirən bəyanatı olacaq, amma o da olmadı. Ermənistan xarici siyasətinin bu səviyyədə olması məndə təəccüb doğurur. Çünki bu, çox ciddi deqradasiyadır. Ermənistanın siyasi təcrübəsi çox anormal bir vəziyyətdədir. Yəni onlar yalan deyəndə, sonra özləri də bu yalana inanmağa başlayırlar. Bu, problemdir. Bəlkə, bu dəfə onlar üçün bir dərs olacaq, reallığa qayıtmaq yolunda bir zəmin yaradacaq. Yəni ümid üçün bir yer var, doğrusu, mən buna inanmıram. O ki, qaldı bundan sonra mümkün olan proseslərə, hesab edirəm ki, Ağdam yolu da istifadə olunacaq. Buna əlavə olaraq Ağdamdan keçərək Xankəndində dayanan dəmir yolu da istifadəyə veriləcək. Bununla da ermənilərin ”blokada” tezisinin istifadəsi mümkün olmayacaq. Gözləmək lazımdır ki, Azərbaycanın təzyiqi nəticəsində ermənilərin Qarabağdakı təsiri addımbaaddım azalacaq. Təsir deyəndə mən silahlı qalıqları və maliyyələşməni nəzərdə tuturam. Ağılları varsa, başa düşməlidirlər ki, Qarabağda qalmaları üçün yeganə imkan Azərbaycan vətəndaşlığını qəbul etməkdir. İkinci yol mümkün deyil. Azərbaycana qarşı müqavimət onlara xeyir gətirməyəcək. Hər halda mülki əhali bunu başa düşəcək. Ya inteqrasiya prosesinə qoşulmalıdırlar, ya da Qarabağı tərk edəcəklər. Ermənilərin bundan əvvəl fikirləşdikləri kimi gələcək onlar üçün mümkün deyil”.

“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə hesab edir ki, Ermənistanın hakimiyyət təmsilçiləri BMT-də Azərbaycan əleyhinə hər hansı qətnamənin qəbul edilməməsini məğlubiyyət kimi qiymətləndirməyəcəklər, “biz mötəbər beynəlxalq təşkilatda Qarabağ ermənilərinin mövcud durumu və Laçın yoluyla bağlı müzakirələrə nail olduq” fikrini əsas tutacaqlar. Onun sözlərinə görə, zaman keçdikcə bu müzakirələr unudulacaq, reallıq isə dəyişməyəcək: “Qarabağ erməniləri Ağdam-Xankəndi yolundan istifadə etməli və Azərbaycan qanunları ilə yaşamalıdırlar! Bu məsələdə güzəşt olmayacaq. Laçın yolu ilə bağlı da manevr imkanlarımız mövcuddur, hansı şərtlər daxilində bu yoldan daşınmanın mümkün olduğunu müəyyənləşdirməli və bəyan etməliyik ki, ermənilərin böyük dövlətlər və beynəlxalq təşkilatlar vasitəsilə Azərbaycana mümkün təzyiqlərini heçə endirək. BMT Təhlükəsizlik Şurasındakı müzakirələr bizi iki hədəfimizdən yayındırmamalıdır: 1. İki ildən sonra Rusiya hərbi kontingentinin Qarabağı tərk etməsinə nail olmalıyıq; 2. Qarabağ separatçılarını tərksilah etməliyik”.

Hərbi ekspert Ədalət Verdiyev isə bildirib ki, Ermənistan BMT Təhlükəsizlik Şurasında növbəti dəfə məğlub oldu. Onun sözlərinə görə, Azərbaycana qarşı kifayət qədər genişmiqyaslı informasiya savaşı Ermənistana heç bir uğur gətirmədi: “Ermənistanın həm sərhəddə, həm də Qarabağda keçirdiyi fəaliyyətlər Ermənistan tərəfinin heç də sülh əldə olunmasına çalışmadığını nümayiş etdirir”.

Ekspert son günlərdə sərhəddə baş verən təxribatlara münasibət bildirib:“BMT platformasında məğlubiyyətə məruz qalan Ermənistan bu dəfə sərhəddə və rus sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazilərdə təxribat xarakterli fəaliyyətlərini daha da intensivləşdirəcək ki, daxili auditoriyanın diqqətini BMT-də baş verən biabırçılıqdan yayındıra bilsin. İstənilən halda Azərbaycan növbəti dəfə qələbəsini əldə edib. Bundan sonrakı müddətdə Azərbaycan birgə bəyanatdan irəli gələn şərtləri tam həcmdə Ermənistan tərəfindən yerinə yetirilməsini tələb etməlidir. Bu fəaliyyətdə ilk növbədə erməni silahlılarının, erməni silah və texnikalarının Qarabağdan çıxarılmasına, həmin silah və texnikaların isə Azərbaycana təhvil verilməsi, Zəngəzur dəhlizinin açılması və Azərbaycan əhalisinin Qarabağa qaytarılması istiqamətində fəaliyyətlərimizi və hərbi siyasi təzyiqlərimizi gücləndirməliyik. Ermənistanın təxribatlarına isə cavabı anında verməliyik. Artıq biz bu məsələlərdə hər hansı xəbərdarlıq, adekvat cavablar deyil, daha təsirli addımlar atmalıyıq”.

***Ağarza Elçinoğlu***

# Prezident İlham Əliyev sərhədçiləri təltif etdi - SİYAHI



***Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları təltif edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Sərəncamla Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ölkənin ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif ediliblər:

"Azərbaycan Bayrağı" ordeni ilə
Şirinzadə Firuz Böyükağa oğlu - general-leytenant
Mustafayev İlkin Aydın oğlu - polkovnik-leytenant
Səfərov Elvin Sərraf oğlu - polkovnik-leytenant
Quliyev Anar Sədi oğlu - kapitan
2-ci dərəcəli "Rəşadət" ordeni ilə
Yunisli Ziya Rauf oğlu - kapitan
3-cü dərəcəli "Rəşadət" ordeni ilə
Hüseynov Naseh İbrahim oğlu - polkovnik
Nağıyev Murad Tofiq oğlu - polkovnik
2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə
İbrahimov Elçin Zaur oğlu - general-leytenant
Abuzərli Natiq Zahid oğlu - general-mayor
3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə
Əliyev Rəsul Rasim oğlu - polkovnik
Nağıyev Məhəmməd Biladon oğlu - polkovnik
Rəhmanov Elşən Sabir oğlu - polkovnik
Abdullayev Anar Arif oğlu - polkovnik-leytenant
Səfiyev Mübariz Məhəmməd oğlu - mayor
"Vətən uğrunda" medalı ilə
Dünyamalıyev Ağamirzə Bəhman oğlu - polkovnik
Həbibov Elnur Arif oğlu - polkovnik
Mirzəyev Mirzə Adil oğlu - polkovnik
Baxşıyev Ravil Sabir oğlu - polkovnik-leytenant
Umudov Xəyyam Ehsan oğlu - 2-ci dərəcəli kapitan
Rzayev Emin Salam oğlu - kapitan
"İgidliyə görə" medalı ilə
Pirimov Ceyhun Ələkbər oğlu - tibb xidməti leytenantı

# Prezident Kəlbəcərə 80 milyon manat ayırdı

***Prezident İlham Əliyev Kəlbəcər şəhərində tikinti, təmir və bərpa işləri üçün maliyyə vəsaiti ayrılması haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, Kəlbəcər şəhərində tikinti, təmir və bərpa işlərinin layihələndirilməsi və həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə



tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsə 80 milyon manat vəsait ayrılıb. Maliyyə Nazirliyinə bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Azərbaycan XİN Nikol Paşinyanın iddialarına cavab verdi

***Azərbaycanın Xarici İşlər Nazirliyi Ermənistanın baş naziri Nikol Paşinyanın hökumət iclasında çıxışı zamanı səsləndirdiyi iddialarına cavab verib.***

"Unikal" xəbər verir ki, XİN-in açıqlamasında deyilir: "Ermənistanın baş naziri Nikol Paşinyanın 17 avqust tarixində hökumətin iclasında çıxışı zamanı BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələri və üzv dövlətlər tərəfindən səslənmiş bəyanatları təhrif etməsi bir daha göstərir ki, Ermənistan növbəti dəfə BMT TŞ-də düçar olduğu uğursuzluqla barışmaq istəmir.

Bölgədə "humanitar vəziyyət" barədə hal-hazırkı iddiaların aradan qaldırılması üçün Azərbaycan tərəfindən təklif olunmuş "Ağdam-Xankəndi" yolundan istifadənin əksər üzv dövlətlər tərəfindən dəstəklənməsinə və bu yoldan istifadə edilməsinə çağırışlara baxmayaraq, Ermənistan baş nazirinin bu yoldan istifadəni qəbul etməməsi Ermənistan tərəfinin bölgədə vəziyyəti daha da gərginləşdirmək niyyətindən xə-



bər verir.

Bununla yanaşı, BMT TŞ üzvlərinin əksəriyyətinin vurğuladığı kimi, bölgədə sülh və sabitliyin bərqərar olması üçün həm sözdə, həm də əməldə suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət edilməsinin vacibliyinə baxmayaraq, Ermənistan tərəfinin "bölgədə humanitar vəziyyət", "blokada" kimi bəhanələri təkrarlayaraq destruktiv mövqe sərgiləməsi narahatlıq doğurur.

Eyni zamanda, üzv dövlətlərin Azərbaycanın legitim təhlükəsizlik narahatlıqlarının nəzərə alınmasının zəruri olduğunu bildirmələri, bu narahatlıqların həlli istiqamətində səylərin birləşdirilməsinin vacib olduğunu bir daha xatırladır.

Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin Azərbaycan qanunvericiliyi çərçivəsində reinteqrasiya siyasətinə qarşı Ermənistanın müqavimət göstərməsi, baş nazirin guya Azərbaycanın erməni sakinlərə qarşı atəş açdığı barədə iddialar səsləndirməsi və ölkəmizi "etnik təmizləmədə" təqsirləndirməsi Ermənistan rəhbərliyinin bölgədə reallıqları hələ də düzgün qiymətləndirmədiyini nümayiş etdirir.

Ermənistan tərəfi anlamalıdır ki, bölgədə sülh və sabitliyin təminatının yolu əsassız iddialarla BMT Təhlükəsizlik Şurasında məsələ qaldırmaqdan yox, ərazi bütövlüyünün və suverenliyin təsdiq olunması və hörmət edilməsi əsasında qonşu ölkələrlə münasibətlərin qurulmasından və sülhün bərqərar olunması üçün Azərbaycanla birbaşa konstruktiv danışıqlardan keçir".

# "BMT TŞ-nin müzakirələri kimin real sülh istədiyini nümayiş etdirdi" - Şahmar Mövsümov



***BMT Təhlükəsizlik Şurasında dünən keçirilən müzakirələr bir daha göstərdi ki, kim suverenlik və ərazi bütövlüyünə qarşılıqlı hörmət əsasında real və davamlı sülh istəyir.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi ? Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov "Twitter"də yazıb. Mövsümovun sözlərinə görə, dünənli müzakirələr bir daha nümayiş etdirdi ki, kimlər boş qisas ümidləri ilə zaman qazanmaq üçün "humanitar fəlakət" tamaşaları oynamaqda davam edir.

# Putin Rəisi ilə müzakirə apardı

***Rusiya Prezidenti Vladimir Putin və İran Prezidenti Seyid İbrahim Rəisi arasında telefon danışığı olub.***

"Unikal" xəbər verir ki, bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.

Telefon danışığı zamanı İran lideri Rusiya Prezidentinə Dağıstan Respublikasının Mahaçqala şəhərində baş vermiş partlayışda həyatını itirənlərlə bağlı başsağlığı verib.

Putin də öz növbəsində iranlı həmkarına Şirazda məsciddə baş vermiş terror aktına görə başsağlığı verib.

Tərəflər, həmçinin hər iki ölkənin siyasi, iqtisadi, energetika, nəqliyyat - logistika və digər sahələrdə qarşılıqlı əməkdaşlığını müzakirə ediblər.

Beynəlxalq və regional məsələlərdə əməkdaşlığın genişləndirilməsi məsələləri, o cümlədən İranın Şanxay Əməkdaşlıq Təşkilatında (ŞƏT) tamhüquqlu üzv kimi iştiraka, habelə BRİKS-



in fəaliyyətinə qoşulmağa maraqlı olması ilə bağlı məsələlər müzakirə edilib.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Nazirlik iqlim dəyişmələrinin Xəzər dənizinə təsiri ilə bağlı seminar keçirdi

***Avqustun 17-də İqlim Dəyişmələri üzrə Dövlət Komissiyası tərəfindən qəbul olunan qərarların icrası ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşəbbüsü ilə iqlim dəyişmələrinin Xəzər dənizinin səviyyəsinin dinamikasına təsirinin müzakirəsi məqsədilə seminar keçirilib.***

"Unikal" xəbər verir ki, seminarda Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı, Energetika, Fövqəladə Hallar nazirlikləri, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Xəzər Universiteti,



BMT-nin İnkişaf Proqramı (UNDP) və digər yerli və beynəlxalq qurumların nümayəndələri iştirak edib.

Seminarın birinci hissəsi Milli Adaptasiya Planının (NAP) hazırlanmasına, ikinci hissəsi isə iqlim dəyişmələrinin Xəzər dənizinin səviyyəsinin dinamikasına təsiri mövzularına həsr olunub.

Seminarda iqlim dəyişmələrinin Xəzər dənizinin səviyyəsinin dinamikasına təsiri, səviyyə dəyişmələrinin ölkəmizin sahil zonasında yaratdığı sosial-iqtisadi və ekoloji problemlər, iqlim dəyişmələri nəticəsində artmaqda olan təbii fəlakət törədə bilən təhlükəli hidrometeoroloji hadisələr və digər mövzular müzakirə olunub.

Seminara Xəzəryanı ölkələrin Hidrometeorologiya Xidmətlərinin nümayəndələri də qoşulublar. Rusiyanın Federal Hidrometeorologiya və Ətraf Mühitin Monitorinqi Xidmətinin ("Rosqidromet") nümayəndəsi xanım Y. Ostrovskaya "Regional iqlim dəyişmələrinin Xəzər dənizinin səviyyəsinə təsiri", həmçinin Qazaxıstan Respublikasının Ekologiya, Geologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidmətinin (RQP "Kazqidromet") əməkdaşı cənab N. Abayev "Qazaxıstan Respublikasının Milli Hidrometeorologiya Xidmətinin hidrometeorologiya sahəsində və Xəzər dənizi regionunda fəaliyyəti" mövzuları ilə bağlı çıxış ediblər.

# Aİ rəsmisi Ermənistan Müdafiə Nazirliyinin dezinformasiyası ilə bağlı açıqlama verdi

***Avropa İttifaqının Ermənistandakı monitorinq missiyası avqustun 15-də Ermənistan-Azərbaycan şərti sərhədində monitorinq zamanı eşidilən atəş səslərinin mənbəyini müəyyən edə bilməyib.***

"Unikal" xəbər verir ki, bu barədə "Report"a Avropa İttifaqının (Aİ) Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali komissarının mətbuat katibi Peter Stano bildirib.

"Avqustun 15-də Yuxarı Şorca kəndi yaxınlığında keçirilən patrul zamanı Aİ-nin Ermənistandakı Monitorinq Missiyası (EUMA) patrulun aparıldığı yerdən təxminən bir kilometr məsafədə dörd-beş atəş qeydə alıb. Lakin missiyanın yerləşdiyi istiqamət atəşin mənbəyini və hədəfini müəyyən etməyə imkan verməyib. Patrul iştirakçıları özlərini atəşin hədəfi kimi görməsələr də, ehtiyat tədbiri olaraq ərazini tərk ediblər", - o vurğulayıb.



Maraqlıdır ki, Aİ-nin Ermənistandakı missiyasının "X" sosial şəbəkəsindəki rəsmi səhifəsində ilk olaraq Ermənistan Müdafiə Nazirliyinin iddialarının əksinə olaraq, patrulun atəşə tutulmadığı barədə paylaşım edilmişdi.

Amma görünür, Ermənistan tərəfinin və onun Aİ-dəki havadarlarının fəal təzyiqi altında bu paylaşım başqası ilə əvəz edilib. Həmin paylaşımda isə qeyd edilib ki, atışma zamanı patrul xidməti həyata keçirilib, heç kəs xəsarət almayıb. Bu zaman missiyanın atəşin mənbəyini və hədəfini müəyyən etmək imkanının olmaması barədə heç nə yazılmayıb.

Xatırladaq ki, daha əvvəl Azərbaycan Müdafiə Nazirliyi bəyan edib ki, avqustun 15-də saat 12:20 radələrində Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi ərazisində guya Avropa İttifaqının müşahidəçiləri və onların avtomobili istiqamətində Azərbaycan Ordusunun bölmələri tərəfindən atəş açılması barədə erməni informasiya resurslarında yayılan məlumat həqiqətə uyğun deyil, qarşı tərəfin növbəti dezinformasiyasıdır.

# Dövlət Komitəsi büdcənin icrası ilə bağlı yazılanlara aydınlıq gətirdi

***Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu qurumun büdcəsinin icrası ilə bağlı yazılanların həqiqətə uyğun olmadığını bəyan edib.***

Dövlət Komitəsindən bildirilib ki, məlumatda Komitə tərəfindən dövlət satınalmalarına ayrılan maliyyə vəsaiti ilə bağlı onun üçillik büdcə vəsaitini aşan şişirdilmiş rəqəmlər göstərilib və əsassız ittihamlar yer alıb.

"Bu cür məlumatların ictimaiyyətdə çaşqınlıq yarada biləcəyini nəzərə alaraq Dövlət Komitəsi bildirir ki, komitə dövlət büdcəsindən maliyyələşən təşkilat olaraq "Büdcə sistemi haqqında" AR Qanununa əsasən hər il maliyyə vəsaitlərinin hərəkətinə və istifadəsinə dair məlumatları Maliyyə Nazirliyinə və Hesablama Palatasına təqdim edir. Əlavə olaraq bildiririk ki, 2020-ci ildə Covid-19 pandemiyası səbəbindən Dövlət Komitəsi tərəfindən maliyyə tutumlu tədbirlərin sayı məhdud olmuşdur. 2021-ci ildə 432 462 (dörd yüz otuz iki min dörd yüz altmış iki), 2022- ci ildə 999 198 (doqquz yüz doxsan doqquz min yüz doxsan səkkiz) və 2023-cü ildə 3 313 054 (üç milyon üç yüz on üç min əlli dörd) manat vəsait müqabilində tədbirlərin təşkili üzrə müqavilələr bağlanılıb və öhdəliklər yerinə yetirilib".

"Qeyd edilməlidir ki, həyata keçirilən tədbirlər Dövlət Komitəsinin illik fəaliyyət planına əsasən, ölkə rəhbərinin imzaladığı dövlət proqramları və milli fəaliyyət planları çərçivəsində Komitənin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi ilə bağlı olur. Həmçinin bu tədbirlər ictimaiyyət və çoxsaylı mətbuat nümayəndələrinin iştirakı ilə keçirilir və bu barədə məlumatlar müxtəlif KİV - də dərc edilir. Hər il dövlət büdcəsindən ayrılmış vəsaitin təyinatı üzrə, Komitə tərəfindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, satınalma proseduru (açıq tender) həyata keçirilir. Satınalma proseduru elekrton formada "etender.gov.az" portalı vasitəsilə aparılır. Bütün proses qanunvericiliyin tələblərinə uyğun olaraq şəffaf formada icra edilir"

Bildirlib ki, açıq tender proseduru yekunlaşdıqdan sonra, təqdim olunmuş sənədlər tender komissiyası (Tender komissiyasının tərkibinə İqtisadiyyat və Maliyyə Nazirliyinin nümayəndələri daxil olur) tərəfindən qiymətləndirilir, yekun protokol hazırlanır və komissiya üzvləri tərəfindən imzalanır. İmzalanmış protokol qeydə alınması üçün bu sahədə səlahiyyətli orqan olan İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə məktub ilə



yönləndirilir.

Yekun protokolun nəticələri Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən qeydiyyata alındıqdan sonra, qalib təşkilat ilə müqavilə bağlanılır və il ərzində öhdəliklər qarşılıqlı formada, yüksək keyfiyyətlə həyata keçirilir.

Dövlət Komitəsi media nümayəndələrinin informasiyanı almaq və yaymaq hüququna hörmətlə yanaşır, ictimaiyyətin diqqətini yanlış istiqamətə yönləndirən məlumatların yayılması yolu ilə oxucu sayını artırmaq niyyətində olan media subyektlərini bu məqsədlərinə çatmaq üçün konstruktiv yanaşma sərgiləməyə çağırmaqla yanaşı, belə əməllərə görə qanunvericilikdə müvafiq məsuliyyət nəzərdə tutulduğunu bir daha xatırlatmağı da vacib hesab edir.

# Həbsdə olan YAP-çı qadın aclıq etmir - açıqlama

***AR Cinayət Məcəlləsinin 178.3.2 maddəsi ilə təqsirli bilinərək 20.09.2021-ci il tarixində həbs edilmiş Aytac Pərviz qızı Əliyevanın aclıq aksiyası keçirməsi ilə bağlı həqiqətə uyğun olmayan məlumatlar yayılıb.***

"Unikal"ın sorğusuna cavab olaraq Penitensiar Xidmətdən verilən məlumata görə, barəsində həqiqəti əks etdirməyən məlumatların yayılmasın-



dan narahat olan Aytac Əliyeva 16.08.2023-cü il tarixdə müəssisə rəhbərliyinə yazılı şəkildə müraciət edərək sonuncu məhkəmə iclasında aclıq keçirəcəyini bildirsədə müəssisənin əməkdaşlarının onunla apardığı profilaktik söhbətlərdən sonra fikrindən daşındığını, saxlanma şəraitindən narazı olmadığını, aclıq etmədiyini və səbrlə məhkəmənin yekun qərarını gözlədiyini qeyd edib.



# Babək Ələkbərov və Zaur Zeynalova general-mayor rütbəsi verilib

***Polkovnik Babək Mürsəl oğlu Ələkbərova "general-mayor" ali hərbi rütbəsi verilib.***

"Unikal"xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Prezident İlham Əliyev polkovnik Zaur Ağaqardaş oğlu Zeynalova da "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında sərəncam imzalayıb.

Qeyd edək ki, Vətən Müharibəsi Qəhrəmanı Babək Ələkbərov Dövlət Sərhəd Xidmətinin Çevik Hərəkət Qüvvələrinin komandanıdır.

Zaur Zeynalov isə DSX Əməliyyat Axtarış Baş İdarəsinin rəisidir.

# Naxçıvanda nazirlikdə yeni təyinat

***Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyində yeni təyinat olub.***



"Unikal"ın əldə etdiyi məlumata görə, NMR Kənd Təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini icra edən Xəyalə Dadaşovanın əmri ilə Məhəmməd Zeynalov şöbə müdiri vəzifəsinə təyin olunub.

Qeyd edək ki, Məhəmməd Zeynalov bu təyinatadək Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyində müxtəlif vəzifələrdə çalışıb.

*Tural Əhmədov*

# "Türkiyənin dəstəyini hər zaman hiss edirik" - Hikmət Hacıyev



***"Türkiyə bizim qardaşımız, onun gücü bizim gücümüzdür. Hər zaman bir millət, iki dövlətik. Türkiyənin diqqət və qayğısını hər zaman yanımızda hiss edirik. Azərbaycan da həmişə qardaş Türkiyənin yanındadır".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ağdamda türkiyəli jurnalistlərə açıqlamasında deyib.

Laçın yolunda erməni təxribatı barədə danışan H.Hacıyev Bərdə-Ağdam dəmir yolu və avtomobil yolunun tikintisi barədə məlumat verib:

"Bərdə-Ağdam-Xankəndi yolu tarixən daima fəaliyyət göstərib. Bu yollar Qarabağın ermənilər yaşayan hissəsinə qədər çəkilir və hazırda üzərində dayanmışıq. Məhz bu gün üzərində dayandığımız yolu da Qarabağın erməni sakinlərinin Azərbaycanın iqtisadi, siyasi sosial inteqrasiyası kimi görürük. Biz Laçın yolunu inkar etmirik, amma digər yolların olması da yaxşı imkandır".

H.Hacıyev bildirib ki, hazırda reinteqrasiyadan başqa yol yoxdur.



## Azərbaycanda 13 siyasi partiya ləğv olundu

***Azərbaycanda daha iki siyasi partiya - Vahid Azərbaycan Milli Birlik və Qorqud partiyaları ləğv olunub.***

"Unikal" xəbər verir ki, bu barədə Ədliyyə Nazirliyi dünən qərar qəbul edib.

Nazirliyin məlumatına görə, Vahid Azərbaycan Milli Birlik Partiyası ləğv olunması ilə bağlı qərar qəbul edib və buna dair aidiyyəti sənədləri Ədliyyə Nazirliyinə təqdim edib. Partiyanın ləğvi barədə qeyd 15.08.2023-cü il tarixdə qeyri-kommersiya qurumlarının dövlət reyestrinə daxil olunub.

Qeyd olunub ki, "Qorqud" Partiyası da ləğv olunması ilə bağlı qərar qəbul edib və buna dair aidiyyəti sənədlər Ədliyyə Nazirliyinə təqdim olunub.

Bundan başqa, avqust ayı ərzində Ədliyyə Nazirliyi daha 11 partiyanın ləğvi barədə qərarlar verib.

Bunlar Azərbaycan Liberal Demokrat Partiyası, Azərbaycan Milli Demokrat Partiyası, Azərbaycan Milli Dövlətçilik Partiyası, "Yeni Yol" partiyası, Müstəqil Xalq Partiyası, Milli Vəhdət Partiyası, Azərbaycan Sosial Rifah Partiyası, Azərbaycan Milli Demokrat Partiyası, Azərbaycan Naminə Alyans Partiyası, Birlik Partiyası, Azərbaycan Təkamül Partiyasıdır.

Adları çəkilən partiyalar bir müddət əvvəl özlərini buraxmaq barədə qərarlar veriblər.

## REAL üzv siyahısını yenidən Nazirliyə təqdim etdi

***"REAL partiyasının yenilənmiş reyestri (5401 nəfər) Ədliyyə Nazirliyinə çatdı".***

"Unikal" xəbər verir ki, bunu partiyanın sədri İlqar Məmmədov bildirib.

"Əvvəlki siyahımızda olanların çoxunun məlumatları elə əvvəldən düz idi, digərlərinə isə düzəlişlər etdik. Üstəgəl yeni qeydiyyatdan keçmiş üzvlər də əlavə olundu. 30 gün ərzində müsbət cavab alsaq, ondan sonrakı 90 gün ərzində yeni qanunda nəzərdə tutulduğu üçün qurultay keçirməliyik", - o qeyd edib.

Xatırladaq ki, Azərbaycanda siyasi partiyaların təkrar qeydiyyata alınması prosesi həyata keçirilir. Rəsmi məlumata görə, 27 siyasi partiya üzvlərinin siyahısını Ədliyyə Nazirliyinə təqdim edib. Bildirilib ki, "Siyasi partiyalar haqqında" Qanuna əsasən partiyaların üzvlərinin reyestrinin qanunvericiliyin tələblərinə uyğunluğunun yoxlanılması zamanı onların bəzilərində qüsurlar, o cümlədən - üzvləri olmayan, vəfat etmiş şəxslərin reyestrə daxil edilməsi, bəzi şəxslərin adlarının təkrarlanması halları aşkarlanıb.

# "Azərbaycanda partiyalar ideologiya deyil, liderlər ətrafında yaradılıb"

## Mütəllim Rəhimli: "Ona görə də liderlərin birləşməsi real görsənmir, buna onların iddiaları və məqsədləri imkan vermir"

***"Siyasi partiyalar haqqında" qanuna edilən dəyişikliklərdən sonrai siyasi düşərgədə yenidən formalaşma prosesinə start verilib. Artıq bir çox patiya özünü buraxıb, bəziləri isə yenidən qeydiyyat prosesində siyasi həyatının son dönəmlərini yaşamaqdadır. "Unikal"a müsahibə verən Ədalət Partiyasının sədr müavini Mütəllim Rəhimli ilə söhbətimiz də bu mövzu ətrafında oldu.***

***-Mütəllim bəy, öncə siyasi partiyalar haqqında qanuna edilən dəyişiklikdən sonra partiyaların qeydiyyat prosesinə və ortaya çıxan mənzərəyə münasibətinizi bilmək istərdik. Hazırkı durumu necə qiymətləndirirsiz?***

-Artıq "Siyasi partiyalar haqqında" qanunu şərh etmək, ona münasibət bildirmək və bir çox müddəalarını tənqid etmək daldan atılan daş təsiri yaradır. Çünki indi qanunun tələblərini reallaşdırmaq lazımdır, əks halda siyasi partiyanın qeydiyyatı məsələsi sual altına düşə bilər. Ona görə də müşahidə edildiyi kimi iddialı siyasi partiyalar fəaliyyətini yeni qanunun tələblərinə uyğunlaşdırmağa çalışırlar. Proses çox çətin olmasa da, ancaq özünəməxsus incəlikləri var və fərqli yanaşmalar tələb edir ki, bu da partiyaların qarşısına müəyyən problemlər çıxarır. Problemin bəziləri fəaliyyətin yeni tələblərə uyğunlaşdırılması ilə bağlıdır. Bu zamanla tamamilə həll edilə biləcək məsələdir. Yəni, gələcəkdə siyasi partiyanın fəaliyyətini elə tənzimləmək mümkün olacaq ki, o tamamilə yeni qanunun tələblərinə cavab versin. Digər problem isə sırf partiyadan kənar amillərlə əlaqədardır. Bu daha çox siyasi institutlaşma və cəmiyyətin siyasi dünyagörüşü, təfəkkürü ilə bağlıdır. Bunun həlli xeyli vaxt tələb edəcək. Bu problemlərin sırasına bir şəxsin bir neçə partiyaya üzv yazılması, partiya mənsubiyyətini qorxu altında inkar etməsi, siyasi proseslərdə iştirakdan imtina etməsi, həddən artıq fərdi praqmatikliyin olması və s. aid etmək olar.

Bütün bu saydıqlarımla yanaşı hesab edirəm ki, 20-dən çox partiya reyestrdən keçmək imkanına malikdir. Bunu Ədliyyə Nazirliyinin partiyalara göndərdiyi məktubların təhlili deməyə imkan verir. Çünki onların və bu sırada da Ədalət Partiyasının qarşılaşdığı əsas problem üzvlərin ad, soyad, təvəllüdlərində yol verilmiş texniki xətalar və bir də hər kəsin telefon nömrəsinin qeyd edilməməsi ilə bağlıdır. Ümid edirəm ki, bunlar da tezliklə aradan qaldırılacaq.

***-Bir sıra müxalifət partiyaları qanunun bəzi tələblərini anti-demokratik hesab edirlər. Amma belə baxanda 5 min aktiv üzv toplaya bilməyən siyasi qüvvə niyə partiya olmalıdır ki?***

- Qeyd etdiyim kimi, indi qanunun müddəalarının təhlili zamanı deyil. Yəqin ki, qanun praktikaya tətbiq edildikcə onunla bağlı daha geniş fikir mübadiləsi aparılacaq, təkliflər veriləcək. Üzvlərin sayı məsələsinə gəldikdə bu iki yanaşmanın ortaya çıxmasına imkan verir. Birincisi, biz qəbul etməliyik ki, yalnız 5 min üzvü olan siyasi qurumu partiya hesab edirik. Yəni, burada fiziki amil əsasdır. Yəni, partiyanın ölkənin siyasi həyatında iştirakı, ictimai rəyə təsiri və s. nəzərə alınmır. İkincisi, biz siyasi partiyanı üzvlərin sayına görə yox, ictimai-siyasi həyatda tutduğu yerə, oynadığı rola, irəli sürdüyü təkliflərə görə qəbul edə bilərikmi! Burada isə partiyanın sosial keyfiyyətləri əsas götürülməlidir. Göründüyü kimi, biz hazırda 1-ci variantı qəbul etmişik.

Düşünürəm ki, hər şeydə bir xeyir var prinsipini əsas tutsaq bu variant da partiyaların müəyyən qədər inkişafına gətirib çıxara bilər. Ancaq dediyiniz kimi, hazırda 5 min aktiv üzvü olan partiya yoxdur. Hətta hakimiyyətdə olan YAP-ın da bu qədər aktiv üzvü yoxdur. 5 min aktiv üzv çox böyük güc deməkdir. Mövcud durumda ölkəmizdəki siyasi partiyaların üzvlərinin böyük əksəriyyəti passiv üzvlərdir. Onlar partiyanın üzvləridir, lakin siyasi proseslərdə fəal iştirak etmirlər, yalnız bir hissəsi seçkilər vaxtı fəallaşırlar.



***-Partiyaların birləşməsi məsələsi ilə bağlı sizin mövqeyiniz necədir? Ədalət Partiyası hansı partiya ilə birləşə bilər?***

- Siyasi proseslər inkişaf etdikcə buna adekvat olaraq partiyalar da dəyişməlidirlər. "Siyasi partiyalar haqqında" qanun dəyişəndə partiyaların da birləşməsi nəzəri olaraq mümkün görünürdü. Lakin bu belə olmadı. Çünki partiyalar ideologiyalar əsasında formalaşmayıb, liderlər ətrafında yaradılıb. Ona görə də liderlərin birləşməsi real görsənmir, buna onların iddiaları və məqsədləri imkan vermir.

Hazırda Ədalət partiyası qanunun tələbinə uyğun olaraq qeydiyyat məsələləri ilə məşğuldur. Hər hansı bir partiya ilə birləşmə məsələsi gündəmdə deyil.

***- Ümumiyyətlə, hazırda ölkədə siyasi partiyalara etimad, cəmiyyətin siyasi proseslərdə iştirakçılığı sizi qane edirmi?***

- Partiyaların ölkənin ictimai-siyasi həyatında iştirakının səviyyəsi təkcə onlardan asılı deyil. Bu daha çox mövcud mühitlə bağlıdır. Partiyalar da təəssüf ki, mühitə uyğunlaşmağa daha çox meyl edirlər. Məsələyə bu aspektdən yanaşdıqda təbii ki, partiyaların siyasi proseslərdə iştirakını qaneedici saymaq olmaz. Bu isə olduqca narahatedici situasiyadır. Biz birmənalı olaraq dərk etməliyik ki, fundamental inkişaf fikirlərin toqquşması, açıq müzakirələr, qarşılıqlı sağlam tənqidlər şəraitində mümkündür.

***-Bir müddət öncə hakimiyyət tərəfindən müxalif qüvvələrlə dialoq prosesi başlamışdı. Hazırda o proses nə yerdədir. Bütün məsələləri danışıb qurtardız, yoxsa...***

- Əslində hakimiyyətin bu addımı təqdir ediləcək bir davranış idi. Bunun sayəsində bir sıra partiyalar qeydiyyata alındı, ofislə təmin olundu. Baxmayaraq ki, qanunun dəyişməsi ilə elə həmin partiyalar da daxil olmaqla bir çoxu özünü buraxmaq məcburiyyətində qaldı. Amma məsələnin əsas mahiyyəti ondan ibarət oldu ki, ümummilli məsələlərdə siyasi partiyalar vahid mövqedən çıxış etdilər. Ölkənin təbliğat siyasəti vahid hədəfə yönəldi. Heç kim atılan addımların yanlış və ya daha effektiv variantın mövcudluğu barədə danışmadı. Burada düşünürəm ki, bütövlükdə xalqımız və vətənimiz qazandı.

İqtidarla müxalifət və iqtidaryönlü partiyalar arasında baş tutan görüşlər isə klassik anlamda dialoq mahiyyətli deyildi. Çünki can verən müxalifət düşərgəsi hakimiyyətlə eyni çəkiyə malik olmadığından bərabər əsaslarla danışıqlar alınmadı. Əvəzində isə iqtidaryönlü müxalifət kimi bir çoxları şəxsi problemlərinin həlli məsələsini qaldırdı, ümummilli maraqlar müzakirə predmeti olmadı. Zatən bir papkasından və bir sədrindən ibarət olan "partiya"lardan bundan artıq nə gözləmək olardı. Onlar yaxşı artist kimi müxalifət rolu oynayırdılar, hətta aşkarda əsl müxalifətdən də sərt, alovlu və bəlağətli danışırdılar. Həqiqi mahiyyətləri isə maddi bağlılıqdan o yana keçmirdi. Onlar yol davası deyil, qarın davası aparırdılar. Düşünürəm ki, sürətli dəyişən dünyada iqtidarla müxalifət arasında sağlam dialoqun qurulması, iqtidarın müxalifətə düşmən kimi deyil, gələcək hakimiyyət qüvvəsi kimi baxması hamının xeyrinə olardı.

***-Maraqlı bir məqam var ki, ölkədəki müxalif siyasi qüvvələr arasında da normal münasibətlər yoxdur. Əksəri arasında bir aqressiv, barışmaz münasibətlər mövcuddur. Bu barədə nə deyə bilərsiniz?***

- Mən isə deyərdim ki, bütövlükdə cəmiyyətimizdə, insanlar arasında bir gərginlik, aqressivlik, barışmazlıq mühitin olduğu müşahidə edilir. Bu isə yaxşı bir hal deyil və təəssüf ki, artan xətt üzrə inkişaf edir.

***M.İbrahimli***

# Elman Rüstəmov xaricdəki biznesini böyüdür

## Sabiq baş bankir də digər iri məmurların yolu ilə gedir

***Azərbaycandakı bir sıra iri məmurların ölkədən kənarda böyük biznes şəbəkəsinə sahib olduğu kimsəyə sirr deyil. Onların xaricdə öz ailə üzvlərinin, yaxınlarının adına şirkətlər açması adi hala çevrilib. Bu sırada artıq Elman Rüstəmov da var - o, hazırda Baş nazirin müşaviridir, uzun müddət isə Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinə rəhbərlik edib.***

Əslində Rüstəmov hələ AMB sədri olarkən də onun ölkədən kənarda biznesinin olduğu məlumdur. Lakin gələn məlumatlar ölkənin baş bankının rəhbərliyindən kənarlaşdırıqdan sonra onun xaricdəki biznesini gücləndirməyə və genişləndirməyə qərar verdiyini göstərir. Belə ki, bir neçə gün öncə yerli mediada Elman müəllimin kiçik qızı Süsən Rüstəmovanın Londonda şirkət açdığı xəbəri yayılıb. Bu barədə yayılan məlumatda iddia edilib ki, London Modalar Kollecinin məzunu olan Süsən Rüstəmova EV LDN LTD-ni İran əsilli Anita Nazənin Şahi ilə ortaqlıq əsasında bu ilin yanvarında təsis edib. Şirkət keçmiş baş bankirin qızına məxsus Belvedere Row Apartments 64, Fountain Park Way ünvanında qeydiyyatdan keçib.

Daha ilginc bir məqam isə ondan ibarətdir ki, Elman Rüstəmov Londonun bahalı yaşayış kompleksində yerləşən həmin mənzili qızına 2 il əvvəl 820 min funt sterlinqə alıbmış.

Qeyd edək ki, sabiq baş bankirin ailə üzvləri bir müddətdir ki, Londonda biznes şəbəkəsi formalaşdırmaqla məşğuldur. Onun böyük qızı Günel Rüstəmova Britaniya paytaxtında bahalı mülkə sahibdir və "Dumanlı Albion"da atasının dəstəyi ilə biznes qura bilib. Söhbət 28 aprel 2005-ci ildə "Basement 32 Woodstock Grove, London, Uk W12 8LE" ünvanında qeydiyyatdan keçirilmiş "Gyunel Limited" şirkətindən gedir. 2022-ci ilin maliyyə hesabatına görə adıçəkilən şirkətin aktivləri 6 milyon funt-sterlinqdən artıqdır

Orta təhsilini Bakıda, ali təhsilini isə Böyük Britaniyada alan G.Rüstəmova əvvəlcə London Kollecində modelyerlik üzrə təhsil alıb, daha sonra İngiltərədə nüfuzlu təhsil ocağı sayılan "Central Saint Martins"i incəsənət və moda sənayesi ixtisası üzrə bitirib, yüksək dərəcəli dizayner diplomuna sahiblənib. O, hazırda Avropada tanınmış modelyerlərdən biridir. 10 ildən çoxdur Londonda yaşayan azərbaycanlı modelyerin kolleksiyaları indiyədək dünyanın bir çox dəb şoularında nümayiş olunub. Londonda, Parisdə onun kolleksiyalarının nümayişi üçün yüksək səviyyəli dəb şouları keçirilib.

Məlumatlara görə, G.Rüstəmova Yəmən şahzadələri daxil olmaqla, bir çox Avropa və Asiya ölkələrindən olan yüksək rütbəli məmur ailələrinin geyimlərinin modellərinin müəllifidir. Onun Londonda açdığı şirkət isə "Gyunel Limited" adlanır. Son vaxtlar bu şirkətlə bağlı xəbərlərdə deyilir ki, "Gyunel Limited"in borcu 2022-ci ildə 537 min funt-sterlinq artaraq 6,84 milyon funt-sterlinqə (14,4 milyon manat) yüksəlib.

Yeri gəlmişkən, Rüstəmovların ailə biznesi yalnız Britaniya ilə məhdudlaşmır. Baş bankirin Çexiyada otel sahibi olduğu da yayılan məlumatlar arasındadır.



Bundan başqa, Rüstəmovların Türkiyə və Gürcüstanın daşınmaz əmlak bazarında da pay sahibi olduqları deyilir. Çexiyadakı "ALPS s.r.o.", Türkiyədəki "Etiler Dış Ticaret Limited", eləcə də Kipr və Cenevrədəki şirkətlər də onun xaricdəki biznes şəbəkəsinə aid edilir. Bu biznes şəbəkəsinin əsas idarəçisi kimi isə Elman müəllimin övladlarının və yaxın qohumlarının adları çəkilir.

Bir müddət öncə sabiq baş bankirin hətta Yaponiya ilə də biznes əlaqələrinin varlığına dair məlumat yaayılmışdı. İddialara görə, o, Yaponiyanın məşhur "Mitsubishi", "Subaru" avtomobillərin idxalını və satışını təşkil edən şirkətlərin qeyri-rəsmi shaibidir. Bu markalar satış sayına görə Azərbaycanın avtoparkında birinci onluqda yer alır. Onların əsas müştəriləri isə yerli və xarici şirkətlər, səfirliklərdir.

Qeyd edək ki, sabiq baş bankir və ailə üzvləri xaricdəki biznes fəaliyyətləri ilə bağlı yayılan məlumatları indiyədək nə təsdiq, nə də təkzib ediblər.

Xatırladaq ki, hazırda 71 yaşı olan Elman Rüstəmov 1992-ci ilin dekabrında Azərbaycan Respublikası Milli Bankı İdarə Heyəti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. 1995-ci ilin yanvarında isə Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətinin sədri vəzifəsinə gətirilib.

Bundan sonra düz 27 il boyunca həmin postu tutan Rüstəmov, ötən il səlahiyyət müddəti başa çatmadan baş bankirlikdən uzaqlaşdırılıb.

Onun 3 övladı - iki qızı, bir oğlu var.

*Toğrul Əliyev*

# Dövlət qulluğunda inzibati rəhbər vəzifələrə qəbul imtahanı keçiriləcək



***Sentyabrın 17-də inzibati dövlət qulluğu vəzifələrinin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AB və AC qruplarına uyğun vəzifələr üzrə test imtahanı keçiriləcək.***

Bu barədə Dövlət İmtahan Mərkəzindən xəbər verilib. İmtahanda iştirak etmək istəyən namizədlərin qeydiyyatı 17 avqust saat 15:00-dan 14 sentyabr saat 11:00-dək aparılacaq.

İmtahan kompüter vasitəsilə keçiriləcək. İmtahanın keçiriləcəyi ünvan: Bakı ş., Nəsimi rayonu, Əbdulvahab Salamzadə küçəsi, 28 (8 Noyabr metro stansiyasının yanı).

İmtahanda iştirak etmək istəyən namizədlər DİM-in portalında "Şəxsi kabinet"lərini yaratmalıdır (şəxsi kabineti olmayanlar). Kabinet yaradılan zaman pul hesabı açılır. İmtahanlarda iştirak üçün ödəniş tarifləri ilə buradan tanış ola bilərsiniz. "Şəxsi kabinet"də olan pul hesabına vəsait daxil etmək üçün müxtəlif ödəniş üsullarından (ətraflı məlumat burada) istifadə etmək olar. "Şəxsi kabinet" yaradıldıqdan və hesaba lazımi vəsait daxil edildikdən sonra imtahanlarda iştirak etmək üçün DİM-in internet portalında "Dövlət qulluğuna qəbul üzrə test imtahanında iştirak etmək üçün onlayn qeydiyyat" xidməti vasitəsilə qeydiyyatdan keçmək lazımdır. Qeydiyyatdan keçən və imtahanda iştirak etməyən namizədlərin ödədiyi məbləğ geri qaytarılmır.

# "Əks halda Azərbaycan ən sərt şəkildə cavab verəcək" - Aydın Mirzəzadə



***"Ermənistan onun siyasətini müdafiə edən bir neçə dövlətin köməyi ilə birlikdə BMT Təhlükəsizlik Şurasına müraciət edərək Azərbaycana qarşı hər hansı siyasi qərarın qəbul olunacağına ümid edirdi".***

Bunu "Unikal"a açıqlamasında deputat Aydın Mirzəzadə deyib. O bildirib ki, nəticə ermənilərin gözlədiyi kimi olmadı:

"Ermənistan orada da məğlubiyyətə uğradı. Çıxış edən dövlət rəsmilərinin əksəriyyəti Azərbaycanın suveren hüquqlarına hörmətlə yanaşmağın, Azərbaycan-Ermənistan arasında normal qonşuluq münasibətlərinin qurulmasının vacibliyini vurğuladılar. Təhlükəsizlik Şurası hər hansı qərar qəbul etmədi, yalnız müzakirələr həyata keçirdi. Bununla da Ermənistan yeni bir diplomatik məğlubiyyətə düçar oldu. Belə də olmalı idi. Bu, gözlənilən idi, çünki Ermənistanın tələblərində Azərbaycanın daxili işlərinə qarışmaq və ölkəmizin suveren hüquqlarını şübhə altına almaq cəhdləri idi. Bu isə əlbəttə ki, beynəlxalq hüquqda yolverilməz bir məsələdir. Dünya bir daha Ermənistanın Azərbaycanla mehriban qonşuluq münasibəti qurmaqda maraqlı olmadığını gördü. Həmçinin, hər kəs Qarabağda yaşayan ermənilərin hər hansı bir humanitar fəlakətlə üzləşmədiyinin şahidi oldu. Azərbaycan həmin ərazidə yaşayan erməni sakinlər üçün bütün humanitar vasitələri ən qısa yolla və sərfəli qiymətlərlə təqdim etməyə hazırdır. Ermənistan və onun tərəfdarları isə bunun əleyhinə idilər", - deyə o qeyd edib.

Millət vəkili əlavə edib ki, Ermənistanın bundan sonra Azərbaycanla normal münasibətlər qurmaqdan başqa heç bir çıxış yolu yoxdur: "Bunu Ermənistan etməlidir. Bu, ilk növbədə onların öz maraqlarına cavab verir. Nə vaxt edəcəyi isə artıq Ermənistanın seçimidir. Cənab Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycan Ermənistanla sülh müqaviləsi olmadan da yaşaya bilər. Azərbaycan özünün sərhəd bütövlüyünü təmin edib, öz suveren hüquqlarını qoruyur. Ermənistan tərəfindən isə yeni təxribatların törədilməsi gözləniləndir. Bu gün və dünən dəfələrlə mövqelərimizin atəşə tutulması, erməni diversantın Azərbaycan ərazisinə daxil olması cəhdi Ermənistanın hələ də özünün çirkin əməllərindən əl çəkmək istəmədiyini göstərir. Azərbaycan istənilən təxribatın qarşısını ala bilir. Ermənistan başa düşməlidir ki, Azərbaycanla mütləq normal qonşuluq münasibətləri qurmalıdır. Əks halda isə Azərbaycan ən sərt şəkildə cavab verəcək".

*Murad İbrahimli*

# Birinci sinfə qəbulla bağlı neçə nəfər sənəd verib?



***2023-2024-cü tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbulu davam edir. Qəbul prosesi www.mektebeqebul.edu.az elektron portalı vasitəsilə aparılır.***

Bu barədə "Unikal"a Elm və Təhsil Nazirliyindən məlumat verilib.

Bu günədək birinci sinfə qəbulla bağlı ümumilikdə 128 339 nəfər sorğu yerləşdirib. Onlardan 68 113 nəfəri oğlan, 60 226-sı isə qızdır.

115 840 nəfər Azərbaycan bölməsi, 11 514 nəfər rus bölməsi, 985 nəfər isə tədris digər dillərdə aparılan bölmələr üzrə sorğu yerləşdirib.

Qeyd edək ki, birinci sinfə qəbulla bağlı elektron qeydiyyat prosesi sentyabrın 14-də başa çatacaq.

# Məktəbəhazırlıq qruplarına 20 871 uşaq qeydiyyatdan keçib



***Avqustun 17-si saat 10:00-a olan məlumata əsasən, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına 20 871 uşaq elektron qeydiyyatdan keçib.***

Valideynlər (digər qanuni nümayəndələr) www.mektebeqebul.edu.az elektron sistemi vasitəsilə özünün və övladının şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçə bilər. 2023-2024-cü tədris ili üzrə məktəbəhazırlıq qruplarına 2018-ci ildə anadan olmuş uşaqlar cəlb olunurlar.

Qeyd edək ki, dövlət ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına elektron qeydiyyat prosesi sentyabrın 14-də yekunlaşacaq.

Onu da qeyd edək ki, məktəbəhazırlıq qruplarının yaradılmasında məqsəd 5 yaşlı uşaqların məktəb təliminə hazırlığı ilə əlaqədar psixoloji dayanıqlığını artırmaq, əhatə olunduqları aləmə və təhsil mühitinə uyğunlaşdırmaq, onların ünsiyyət və birgə fəaliyyət bacarıqlarına yiyələnməsini təmin etməkdən ibarətdir.

# DİM-dən ixtisas seçimi edən abituriyentlərə müraciət

***Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə avqustun 18-i saat 11:00-da yutub kanalı (https://www.youtube.com/@stateexamcenter) vasitəsilə I, IV və V ixtisas qrupları üzrə ixtisas seçimi edəcək abituriyentlərə statistik məlumatlar əsasında diqqət yetirməli olduqları məsələlər haqqında məlumat verəcək.***

Bu barədə "Unikal"a DİM-dən bildirilib. Keçidə daxil olub DİM-in yutub kanalına abunə ola bilərsiniz.

Qeyd edək ki, artıq bütün qruplar üzrə "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı kitabçalar nəşr olunub. Kitabçaları "Abituriyent" satış köşkündən (Bakı şəhəri, Nəsimi rayonu, A.Salamzadə küçəsi, 28), həmçinin kitab mağazalarından almaq və ya www.abiturient.az saytından sifariş etmək mümkündür.

Xatırladaq ki, ali təhsil müəssisələrinə qəbul olmaq üçün ixtisas seçimi avqustun 28-i saat 23:59-dək internet vasitəsilə aparılacaq.

# İstirahət mərkəzində 5 nəfər zəhərləndi

***Qusar rayonunda, istirahət mərkəzində 5 nəfər zəhərlənib.***

"Unikal" xəbər verir ki, hadisə Qusar rayonunun Caqar kəndində, "Park Qusar" istirahət mərkəzinin ərazisində qeydə alınıb. Belə ki, istirahət edən sakinlər - 1973-cü il təvəllüdlü Aynurə Bəhram qızı Fərzəliyeva, 2003-cü il təvəllüdlü Bəhram Mübariz oğlu Xanıyev, 1986-cı il təvəllüdlü Fərid Zaman oğlu Əsgərli, 1997-ci il təvəllüdlü Aygül Mübariz qızı Xanızadə və 2002-ci il təvəllüdlü Qızbəs Fəhruz qızı Fərzəliyeva zəhərlənmə diaqnozu ilə rayon xəstəxanasına aparılıblar.

İlkin ehtimala görə, həmin şəxslər qəbul etdikləri qidadan zəhərləniblər. Faktla bağlı araşdırma aparılır.

# Anar Kərimovun aldığı 3 milyonluq ofislə bağlı ilginc iddia

## Sabiq nazirin öz həyat yoldaşına bağışladığı deyilən ofisin aqibəti necə oldu?

***Ötən il dekabrın 22-də mədəniyyət naziri Anar Kərimov tutduğu vəzifədən azad olundu. 2020-ci ilin iyulunda mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyəti verilən Kərimov həmin posta 2021-ci ilin yanvarında təyin edilsə, yəni bu vəzifədə 2 ildən az çalışsa da, onun kreslosunu itirməsi təəccüb doğurmadı.***

Belə ki, eks-nazir postundan kənarlaşdırılmadan ay yarım öncə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Nazirliyində əməliyyat keçirməsi bu nazirlikdə baş verənləri, daha doğrusu, ciddi korrupsiya hallarına yol verilməsi, eləcə də nazir Anar Kərimovun postuna adekvat olmayan fəaliyyətini gündəmə gətirmişdi. Yada salaq ki, əməliyyat zamanı mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, nazirliyin Təchizat və Əmlak Şöbəsinin müdiri İlkin Nəsibov, Protokol Şöbəsinin rəisi Kamil Rzayev və digər vəzifəli şəxslər saxlanılaraq istintaqa cəlb edilmiş, bundan başqa, Şəmkir Regional Mədəniyyət İdarəsinin rəisi Azər Rəcəbov, həmin idarənin İnsan resursları şöbəsinin rəisi Ələkbər Əliyev və məsləhətçisi Seymur Səfərov barəsində olan korrupsiya əməllərinə görə həbs olunmuşdular.

Bundan başqa, mətbuatda yer alan məlumata görə, Hesablama Palatası Mədəniyyət Nazirliyində yoxlama aparmış, Anar Kərimovun vəzifədə olduğu dövr təftiş edilmiş, yoxlamaların nəticələrinə gəlincə, nazirlikdə külli miqdarda yeyinti faktı üzə çıxarılmışdı.

Qısası, belə aydın olurdu ki, Əbülfəs Qarayevin rəhbərlik etdiyi dövrdə Mədəniyyət Nazirliyində dərin kök salmış rüşvət, yeyinti halları Anar Kərimovun zamanında, gözləntilərin əksinə olaraq, nəinki azalmış, yaxud aradan qaldırılmış, əksinə, daha da "çiçəklənmişdi".

Ən maraqlısı o idi ki, DTX 2020-ci ilin mayında da Mədəniyyət Nazirliyində əməliyyat keçirmiş və həmin vaxt nazir müavini Rafiq Bayramov saxlanılmış, istintaqa cəlb olunacağı, hətta həbs ediləcəyi deyilən Əbülfəs Qarayev isə çox keçmədən vəzifəsindən azad edilmişdi. Yəni Anar Kərimov sələfinin başına gələnlərdən dərs çıxarmaq, ibrət götürmək əvəzinə onun yolu ilə getməyi üstün tutmuşdu.

Kərimovun postunu itirdiyi ərəfədə ölkə mediasının gündəminə maraqlı bir xəbər düşmüşdü. Həmin xəbərdən belə aydın olurdu ki, büdcədən mədəniyyət sahəsinin inkişafına yönəldilən vəsaitlərin önəmli qismi sabiq nazir tərəfindən müxtəlif yollarla yaxın çevrəsinin adına təsis etdiyi və həyat yoldaşı Mehriban Kərimova tərəfindən idarə olunan "Cultural Network House" ("Mədəniyyət Şəbəkələri Evi"), eləcə də bir neçə digər şirkətlər üzərindən mənimsənilib. Bundan öncə isə yerli KİV əvvəl yazmışdı ki, Anar Kərimov həyat yoldaşı üçün paytaxtın mərkəzi küçələrindən birində son bir ildə əldə etdiyi, ümumi sahəsi 400 kvadrat, dəyəri təqribən 3 milyondan çox olan ofis alıb. Halbuki Mədəniyyət Nazirliyinə dövlət büdcəsindən ayrılan milyonlara rəğmən, bölgələrin əksəriyyətində mədəniyyət evləri bərbad, baxımsız vəziyyətdədir!

Yeni iddialara görə, A.Kərimov vəzifəsini itirdikdən sonra yaxınlarının adına yaradılmış və birbaşa, yaxud dolayısı ilə həyat yoldaşı tərəfindən idarə edilən şirkətlərin, demək olar, hamısı fəaliyyətini dayandırıb, ya da dayandırmaq üzrədir. Cəmiyyətdə geniş ajiotaj doğuran 3 milyon manatlıq ofis isə boşaldılıb.

Elə "Unikal"ın apardığı araşdırma nəticəsində də aydınlaşıb ki, fəaliyyəti Mədəniyyət Nazirliyinin yayın orqanlarında (məsələn, "Mədəniyyət qəzeti"ndə), yaxud öz sosial şəbəkə hesablarında geniş işıqlandırılan "Cultural Network House" sonuncu tədbirini 2022-ci ilin payızında keçirib.Belə ki, ötən ilin noyabrında Mədəniyyət Nazirliyində antikorrupsiya əməliyyatı baş tutub, bundan sonra Kərimovun ailə şirkətinin adı da ortadan "buxarlanıb".



"Halbuki ictimai birlik kimi qeydiyyatdan keçən bu qurumun elə 2022-ci ilin sentyabrında da təqdimatı keçirilmişdi. Həmin vaxt təntənə ilə bildirilmişdi ki, mart ayında yaradılan bu assosiasiya Azərbaycanda mədəniyyətin təbliğinə dəstək verəcək, Azərbaycanın milli-mənəvi irsini, ənənələrini və zəngin mədəniyyətini dünya xalqlarına çatdıracaq, eyni zamanda ölkənin mədəni həyatında fəal iştirak edərək təqdimatlar, vebinarlar, masterklasslar və s. təşkil edəcək. Lakin Anar Kərimovun "vurulması" ilə "Cultural Network House" da fəaliyyətini dayandırdı. Çünki assosiasiyanın yaradılmasında başlıca məqsəd əslində mədəniyyət tədbirləri altında pul silmək idi. Kərimov postunu itirdikdən sonra isə bu, əlbəttə mümkün olmayacaqdı" deyə mənbələr bildiriblər.

Qeyd edək ki, "Cultural Network House" və digər bir neçə şirkətin sabiq nazir və onun həyat yoldaşı ilə bağlılığı barədə dəfələrlə səsləndirilən iddialar indiyədək təkzib olunmayıb.

***Toğrul Əliyev***

# Səlim Müslümovun adı növbəti qalmaqalda

## Sabiq nazirin oğlu və böyük məbləğdə vergi borcu olan şirkəti məhkəməyə verildi

***Azərbaycanın aparıcı banklarından biri olan "Paşa Bank" ASC hazırda ev dustaqlığında olan sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun oğlunu məhkəməyə verib.***

Məhkəmə iddiası Bakı Kommersiya Məhkəməsinin hakimi Ülkər Həsənovanın icraatına verilib və sentyabr ayının 8-də hazırlıq iclası keçiriləcək(yeniavaz.com). Bildirək ki, məhkəmə iddiası kredit müqaviləsi üzrə mübahisələrlə əlaqəli olaraq qaldırılıb. Bundan başqa, Səlim Müslümovun böyük oğlu Turqay Müslümlü ilə birgə ona məxsus "Orion Global" MMC şirkətini də məhkəməyə verib.



Qeyd edək ki, adıçəkilən şirkət Səlim Müslümovun nazir vəzifəsində işlədiyi dövürdə - 23.11.2017-ci ildə Bakı şəhəri, Binəqədi rayonu, Ziya Bünyadov, ev 7A ünvanında 4 şirkət dövlət qeydiyyatına alınıb. Qeydiyyata alınan şirkətlərin qanuni təmsilçiləri Səlim Müslümovun oğulları - Turqay və Asim Müslümlü qardaşları olub.

Turqay Səlim oğlu Müslümlü "Orion Global" MMC, "Orion Construction" MMC və "Orion Cars" MMC-nin qanuni təmsilçisi, Asim Səlim oğlu Müslümlü isə "Orion Creativ Solutions" MMC-nin qanuni təmsilçisidir.

Barəsində məhkəmə iddiasının qaldırıldığı "Orion Global" MMC-nin dövlət büdcəsinə də böyük həcmdə - 102 min 481 manat 63 qəpik vergi borcu var.

Xatırladaq ki, 2021-ci ildə Səlim Müslümovun əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsində işlədiyi müddətdə nazirliyin fəaliyyət istiqamətləri üzrə əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsinin təşkil edilməsi, işəgötürənlərin əmək, məşğulluq və sosial müdafiə məsələləri ilə bağlı fəaliyyətlərinə dövlət nəzarətinin həyata keçirilməsi və digər səlahiyyətlərin yerinə yetirilməsi zamanı çoxsaylı sui-istifadə hallarına yol verməsinə dair faktlar Dövlət Təhlükəsizliyi Xidmətində araşdırılıb.Toplanılan materiallar əsasında başlanılan cinayət işi üzrə S.Müslümovun xidməti vəzifələrinin icrası ilə əlaqədar özü üçün qanunsuz üstünlüklər əldə etmək məqsədilə qulluq səlahiyyətlərindən tamah niyyəti ilə qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan zərər vurmasına, habelə onun tərəfindən tabeçiliyində işləyən vəzifəli şəxslərdən vasitəçi kimi istifadə etməklə müxtəlif rayonlarda əlillər üçün fərdi yaşayış və internat evlərinin tikinti-təmirinin aparılması işlərini yerinə yetirən fiziki və hüquqi şəxslərə ayrılmış pul vəsaitlərinin bir hissəsinin tələb edilərək alınmasına əsaslı şübhələr müəyyən edilib.

Həmçinin Səlim Müslümovun nazirliyin Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən ölkə ərazisində istehsal, sosial-məişət və iaşə təyinatlı obyektlərin inşası və yenidən qurulması zamanı əməyin mühafizəsi tələblərinə əməl olunması, onların istismara buraxılmasına razılığın verilməsi, əməyin mühafizəsi tələblərinə uyğunluğu ilə bağlı müəssisələrdə aparılmış yoxlamaların nəticələrinə görə müxtəlif vaxtlarda külli miqdarda pul vəsaitləri qismində təkrar rüşvət almasına dair məlumatlar əldə olunub.Eyni zamanda, Daxili nəzarət şöbəsi tərəfindən ərazi strukturlarında aparılmış yoxlamaların nəticələri ilə bağlı onun həmin nazirliyin müxtəlif ərazi şöbələrinin rəhbərlərinin hər birindən 10 min manatdan 30 min manatadək külli miqdarda təkrar rüşvət almasına əsaslı şübhələr müəyyən edilib. Səlim Müslümov Azərbaycan Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Sonradan isə barəsində ev dustaqlığı qərarı verilib. Səlim Müslümov digər vəzifəli şəxslər ilə mütəşəkkil şəkildə böyük korrupsiya cinayətləri törətdiklərini boynuna alıb. Səlim Müslümov oğurladığı 20 milyon manatı geri qaytarıb. Məhkəmənin gedişatında isə onunla işbirliyində olmuş şirkətlərin əvəzindən 4 milyon 500 min manatı da ödəməklə cinayətlərin mütəşəkkil qaydada törədilməsini etiraf etmiş olub.

Beləliklə, sabiq nazir mənimsədiyi 25 milyon manatı dövlətə qaytarıb. Lakin əksər ekspertlər və ictimaiyyət Müslümovun vəzifədə olarkən çirkli yollarla daha böyük vəsait mənimsədiyi qənaətindədir.

Digər tərəfdən, eks-nazir "vurulduqdan", xüsusilə də həbs olunduqdan sonra onun ailə biznesi hazırda faktiki olaraq süqut etmiş vəziyyətdədir. Elə S.Müslümovun biznesmen oğlunun və şirkətinin kredit müqaviləsi üzrə mübahisələr səbəbindən məhkəməyə verilməsi də bunu təsdiqləyir.

***Sənan Mirzə***

# İqtisadi fəal əhalinin sayı açıqlanıb



***2023-cü il avqustun 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 5 milyon 231,9 min nəfər olub, onlardan 4 milyon 942,8 min nəfərini məşğul əhali təşkil edib.***

Dövlət Statistika Komitəsindən bildirilib ki, cari il iyulun 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı 1 milyon 725,5 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 894,2 min nəfər, qeyri-dövlət sektorunda isə 831,3 min nəfər olub. İqtisadiyyatın neft-qaz sektorunda 31,6 min nəfər, qeyri neft-qaz sektorunda isə 1 milyon 693,9 min nəfər çalışıb.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22,9 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,5 faizi emal sənayesində, 6,3 faizi tikintidə, 3,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2,0 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,9 faizi mədənçıxarma sənayesində, 1,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olub. Xidmət sahəsində işləyənlərin 19 faizi təhsil, 18,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,5 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 5 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,6 faizi peşə, elmi və texniki fəaliyyət, 3,1 faizi istirahət, əyləncə və incəsənət, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,1 faizi maliyyə və sığorta fəaliyyəti, 1,9 faizi informasiya və rabitə, 1,1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar və 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində çalışıblar.

2023-cü ilin II rübünün sonuna ölkə ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş və müddəti uzadılmış iş icazələrindən qüvvədə olanlara malik olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı 5 min 474 nəfər olub. Onlardan 48,2 faizi tikintidə, 9,2 faizi mədənçıxarma sənayesində, 8,7 faizi emal sənayesində, 6,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 4,4 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 3,9 faizi informasiya və rabitə, 3,9 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi və 15,4 faizi digər sahələrdə məşğul olmaq üçün iş icazələrinə malik olub.

Bu ilin yanvar-iyun aylarında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 143,1 saat təşkil edib.

# TƏBİB suda boğulma ilə bağlı müraciətlərin sayını açıqladı



***TƏBİB-in tabeliyindəki Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına 03.06.2023-13.08.2023 tarixləri aralığında suda boğulma ilə bağlı ümumi 47 müraciət daxil olub.***

TƏBİB-dən "Unikal"a verilən məlumata görə, onlardan 7 nəfərə yerində tibbi yardım göstərilib, 19 nəfəri hospitalizasiya olunub, 19 nəfər şəxs tibb müəssisəsinə çatdırılmadan vəfat edib.

Qeyd olunub ki, hər gün dövlət nəzarəti olan 19 çimərlikdə təcili yardım briqadaları növbədə dayanır. Suda boğulan şəxslərə ilk tibbi yardım tədbirlərini həyata keçirmllək üçün hər bir təchizat və təminat mövcuddur. Tədqiqatlar göstərir ki, vaxtında və düzgün ilk yardım göstərməklə suda boğulanı həyata qaytarmaq mümkündür. Suda boğulmanın ilk dəqiqələrində zərərçəkənlərin 90%-ni, 6-7 dəqiqədən sonra isə yalnız 1-3%-ni xilas etmək mümkündür. Boğulan şəxsi sudan çıxardıqdan sonra ilk tibbi yardım tədbirləri başlanmalıdır.

Su bərk yad cisim olmadığına görə tənəffüs yollarını tutmur. Ona görə də suda boğulma təhlükəsi ilə qarşılaşan insanın tənəffüs yollarına və mədəsinə yığılmış suyun xaric edilməsinə vaxt itirmək lazım deyil. Dərhal ürək-ağciyər reanimasiyası başlanmalı və Təcili tibbi yardım xidmətinə müraciət edilməlidir. Zərərçəkəni arxası üstə uzadıb ağızdan 2 uğurlu nəfəs vermək lazımdır. Sonra isə ürəyin qapalı masajı 1 dəqiqədə 120 təzyiq olmaqla icra edilməli və sonra yenə də 2 dəfə tənəffüs verilməlidir. Bu hərəkətlər ən az 5 dövr təkrarlanmalıdır.

# Goranboy rayonunda 2023-cü ilin yanvar-iyun ayları ərzində Ümumi Məhsul Buraxılışı

***Goranboy rayonunda 2023-cü ilin yanvar-iyun aylarının əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə Ümumi Məhsul Buraxılışı (ÜMB) 2,3 faiz artaraq 253156,7 min manat olmuşdur. ÜMB-nın 79,2 faizi məhsul istehsalı sahələrində, o cümlədən 8,4 faizi sənayedə, 38,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 32,8 faizi isə tikinti sahəsində yaradılmışdır.***

ÜMB-nın 20,8 faizi xidmət sahələrində, o cümlədən 0,8 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 0,3 faizi informasiya və rabitə sahəsində, 19,7 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində olmuşdur.

| | 2023-cü ilin yanvar-iyun ayları | 2022-ci ilin yanvar-iyun ayları |
|---|---|---|
| Sənaye | 110,3 | 99,5 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 101,6 | 95,2 |
| Tikinti | 102,3 | 3,6 d. |
| Nəqliyyat və anbar təsərrüfatı | 96,0 | 128,9 |
| İnformasiya və rabitə | 118,8 | 95,0 |
| Ticarət, nəqliyyat vasitələrinin təmiri | 100,4 | 100,4 |
| **Yekun** | **102,3** | **136,2** |

**Cədvəl 1**
İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı, sabit qiymətlərlə, əvvəlki ilin müvafiq dövrünə nisbətən faizlə

| | 2023-cü ilin yanvar-iyun ayları | 2022-ci ilin yanvar-iyun ayları |
|---|---|---|
| Sənaye | 21317,5 | 17725,1 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 96106,3 | 85887,8 |
| Tikinti | 83186,6 | 81352,9 |
| Nəqliyyat və anbar təsərrüfatı | 1919,1 | 1887,5 |
| İnformasiya və rabitə | 837,6 | 705,1 |
| Ticarət, nəqliyyat vasitələrinin təmiri | 49789,6 | 43702,3 |
| **Yekun** | **253156,7** | **231260,7** |

**Cədvəl 2**
İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı, min manat




**Qrafik 1**
2023-cü ilin yanvar-iyun aylarında ümumi məhsul buraxılışının strukturu, faizlə

***Goranboy Rayon Statistika İdarəsi***

# "Qobu Park" yaşayış kompleksində içməli su təchizatı yaxşılaşdırılıb

***Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi əhalinin içməli su təminatının yaxşılaşdırılması istiqamətində tədbirləri davam etdirir. Şəbəkələrdə tənzimləmə işlərinin aparılması və yeni nasos qurğularının quraşdırılması hesabına Bakı şəhəri, Qaradağ rayonu Lökbatan qəsəbəsi 2-ci yaşayış massivi və məcburi köçkünlər üçün salınmış "Qobu Park" yaşayış kompleksinin içməli su təchizatı yaxşılaşdırılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Lökbatan qəsəbəsində yerləşən 1 saylı nasos stansiyası əvvəllər qəsəbə ərazisini, həmçinin 5 min kubmetr və 2 min kubmetr tutumu olan 2 mərkəzi anbarları içməli su ilə təmin edib. "Qobu Park" yaşayış kompleksi salındıqdan sonra kompleksin də su təchizatı bu stansiya hesabına aparılıb. Kompleksin genişlənməsi, eləcə də Lökbatan qəsəbəsi 2-ci yaşayış massivində məskunlaşmanın artması suya tələbatı artırıb. Nasos stansiyasının ötürücülük gücü artan tələbatı qarşılamaq imkanında olmadığından "Qobu Park" yaşayış kompleksini təmin etmək üçün əlavə aqreqat quraşdırılıb.

Bununla da "Qobu Park" yaşayış kompleksinin su təchizatında yaranan problemlər aradan qalxıb. Eyni zamanda yeni aqreqatın quraşdırılmasından sonra mövcud nasoslarla 2-ci yaşayış massivinə suyun nəqli gücləndirilib.

Hazırda Lökbatan qəsəbəsi, Rafael Salmanov və 6-cı massiv 4-cü küçənin su təchizatında yaranmış problemin aradan qaldırılması istiqamətində işlər həyata keçirilir. Bu məqsədlə ərazidən keçən təzyiqli magistral xətdən 110 mm diametrli borularla 350 metr uzunluğunda əlavə birləşmə verilməklə şəbəkənin su təchizatı yaxşılaşdırılacaq.

# Azərbaycanda indi də "xaricdə təhsil" adı altında soyğunçuluq

## Həftənin sualı: vətəndaşları övladlarının başqa ölkələrin ali məktəblərinə qəbul vədi ilə aldadıb onların pullarını mənimsəyənlər bu "cəsarəti" haradan alırlar?

***Son zamanlar Azərbaycanda vətəndaşları övladlarının ölkədən kənarda, o cümlədən Türkiyədə ali təhsil alması vədi ilə aldadanlardan şikayətlərin çoxaldığı müşahidə edilir.***

Məsələn, bir neçə gün öncə vətəndaş Mahir Abbaszadə "Xəzər TV"yə açıqlamasında iddia edib ki, ''Brain academy'' təhsil şirkəti övladı Məhəmmədəli Abbasazdənin atestatla türkiyədə univeristetə qəbul prosesini həyata keçirə bilməyib. Onun iddialarına görə qardaş ölkədə yerləşən ali təhsil müəssisələrindən birinə qəbulla bağlı şirkətlə ötən ilin may ayında müqavilə imzalasa da, şərtlər yerinə yetirilməyib.

İddiaçının sözlərinə görə şirkət tərəfindən sonradan onlara övladının türkiyənin giresun universitetinə qəbul olduğu deyilib. Valideyn iddia edir ki, ali təhsil müəssisəsi ilə əlaqə saxladıqları zaman məlum olub ki, şirkət imtahan və qeydiyyat üçün lazım olan vəsaiti universitetə köçürməyib. Mahir Abbaszadə şirkətə ödədiyi vəsaiti geri tələb edir.

Məhəmməd Cəfərov adsoyadlı vətəndaş da eyni şirkətə ödəniş etdiyi halda universitetə qəbul olmadığını iddia edir. Onun sözlərinə görə türkiyədə ali təhsil almaq üçün qarşı tərəfə ilk dəfə 400 manat ödəniş edib.

'Brain academi'' təhsil şirkətinin baş mütəxəssisi Fuad Musalının məsələ ilə bağlı açıqlaması maraqlı olub. O bildirib ki, adıçəkilən şirkət universitetdən tələbələrin qəbulunu alıb. Onlar Bolu şəhərindəki Abant İzzet Baysal universitetindən təhsil haqqı yüksək olduğuna görə, Giresun universitetindən isə dil imtahanından kəsildikləri üçün imtina ediblər.

Şirkət nümayəndəsi əlavə edib ki, narazı şəxslər rəsmi qaydada məhkəməyə müraciət edə bilərlər.

Yuxarıdakı qalmaqalda kimin haqlı olub-olmadığını yəqin ki, aidiyyatı qurumlar aydınlaşdıracaq.

Lakin fakt budur ki, yazının əvvəlində də qeyd etdiyimiz kimi, son zamanlarda Azərbaycanda vətəndaşları övladlarının ölkədən kənarda, o cümlədən Türkiyədə ali təhsil alması vədi ilə aldadanlardan şikayətlər çoxalıb.

Bu arada Qazi Universitetinin doktorantı, araşdırmaçı Şəhla Aslanın da mövzu ilə bağlı açıqlamaları xeyli ilgincdir. O, "Xalq qəzeti"nə sırağagünkü müsahibəsində bildirib ki: "Azərbaycanda attestatla, yəni, imtahansız qəbulla bağlı müəyyən sayda qondarma şirkətlər meydana çıxıb. Bunların çoxu müştəri cəlbi üçün yanlış, etibarsız məlumatlar verirlər. Abituriyenlər üçün yüksək ödəniş qarşılığında universitetlərdən "qəbul alan" həmin təhsil şirkətləri çox da inanılası deyillər. Haradansa attestatla "qəbul alıb" Türkiyəyə oxumağa gələn tələbələr ciddi problemlərlə üz-üzə qalırlar. Şirkətlərin heç də hamısı doğru məlumat vermir və etibardan sui-istifadə edir, yalan vədlərlə inamı sarsıdırlar".

Doktorantın sözlərinə görə, bəzi şirkətlər tərəfindən söylənilənlərlə real şərtlər çox zaman tərs-mütənasib olur. Nəticədə isə tələbə dərslərə başlaya bilmir, arada vaxt da gedir, şirkətə ödənilən pul da batır.

Araşdırmalarımız nəticəsində son vaxtlar xaricdə təhsil adı altında vətəndaşları aldadan şirkətlər və onların rəhbərləri ilə bağlı bir çox cinayət işləri açılıb. Məsələn, bu ilin martında "RT Ravel" və "R.T.Group Akademiya" MMC və "Kale Dershanesi" və "Vish Travel" MMC-nin vəzifəli şəxslərinin qanunsuz əməlləri ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işinin ibtidai istintaqı yekunlaşmışdı. Həmin vaxt bu barədə Baş Prokurorluğun yaydığı məlumatdan aydınlaşırdı ki, istintaq zamanı "RT Ravel" MMC və "R.T.Group Akademiya" MMC-nin təsisçisi və direktoru Rasim Məmmədovun, "Kale Dershanesi" və "Vish Travel" MMC-nin təsisçisi və direktoru Xəyal Yusubovla birgə sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyəti olmadan xaricdə təhsil və iş vizalarının təşkili adı altında müxtəlif şəxslərə məxsus ümumilikdə 164 min manatdan artıq pul vəsaitini ələ keçirməsi və vəzifə saxtakarlığı törətməsinə əsaslı şübhələr müəyyən edilmiş, Rasim Məmmədov və Xəyal Yusubov Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda dələduzluq), 193.1 (yalançı sahibkarlıq) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə yekun ittiham elan olunmuş, cinayət işi baxılması üçün aidiyyatı üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdi.



Belə nümunələr çoxdur, lakin qəribədir ki, hələ də həmin örnəklərdən dərs almayaraq oxşar əməllərə can atanlar, "xaricdə təhsil" adı ilə sadə vətəndaşların pullarını mənimsəməyə cəhd edənlər, ən pisi isə buna nail olanlar tapılır. Nəticədə istər-istəməz sual yaranır: vətəndaşları övladlarının başqa ölkələrin ali məktəblərinə qəbul vədi ilə aldadıb onların pullarını mənimsəyənlər bu "cəsarəti" haradan alırlar?

Yuxarıdakı sualın cavabını bilən varsa, bizə də söyləyərdi, öyrənib, necə deyərlər, maariflənərdik...

***Toğrul Əliyev***

# 5.3.15. dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Qarabağ ermənilәri Azərbaycanın tolerant ölkə olduğunu unutmamalıdırlar!

## Məhəmməd Nooyev: "Qarabağda yaşayan ermənilər seperatçılara yox, Azərbaycanın prezidentinə inanmalıdırlar"



***Ölkəmiz azsaylı xalqlarla birgəyaşayışın Azərbaycan modelini yaratmış bir dövlət kimi dünyada tanınır. Dünya ölkələri Azərbaycanın tolerantlıq nümunəsini daim örnək göstərir, digər xalqları bu dəyərlərdən nümunə götürməyə səsləyir. Bununla belə hələ də ermənilər Qarabağda yaşamağı özlərinə təhdid kimi qəbul edir, dünyaya Azərbaycan xalqı ilə birgəyaşayışın mümkün olmadığını car çəkir. Baxmayaraq ki, dövlət başçısı İlham Əliyev Qarabağda yaşayan ermənilərə müraciət edərək heç bir narahatlığa səbəb olmadığını bəyan edib.***

"Qarabağ erməniləri başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq onlar normal həyat yaşayacaqlar" deyə prezident bildirib.

İlham Əliyev bildirib ki, Azərbaycanın Qarabağ regionunda yaşayan erməni əhalisi bizim vətəndaşlarımızdır və biz onların həyatını necə qaydaya salacağımızı heç bir beynəlxalq mərkəzlə müzakirə etməyəcəyik.

Ölkəmizdə yaşayan azsaylı xalqların nümayəndələri də prezidentin bu fikirlərinə dəstək verir.

Azərbaycan-Avar İctimai Birliyinin sədri Məhəmməd Nooyev deyir ki, Qarabağda yaşayan ermənilər seperatçılara yox, İlham Əliyevin sözlərinə inanmalı, dinc şəraitdə Azərbaycan vətəndaşı kimi yaşamalıdırlar: "Çox təəssüf ki, qarışıqlıq yaratmaq, torpaq iddiası ilə çıxış etmək ermənilərin canında-qanındadır. Azərbaycan dünyada çoxsaylı xalqların, etnik qrupların birgə yaşadığı ölkələrdəndir. Ləzgi, avar, tatar,ingiloy, rus Azərbaycanda özünə qarşı heç bir ayrıseçkilik görmədən yaşayır. Mən Azərbaycan-Avar İctimai Birliyinin sədri olaraq bildirirəm ki, Azərbaycanda avarlara qarşı heç bir ayrıseçkilik yoxdur. Ümumiyyətlə Qax-Balakən-Zaqatala bölgəsinə gəldikdə burada hansısa azsaylı xalqın yaşadığının fərqinə belə varmırsan. Hər kəs özünü azərbaycanlı hiss edir. Avarlar azərbaycanlılarla qız alıb-qız verərək qohumlaşıb, doğmalaşıblar. Burada avar-azərbaycanlı söhbəti eşitmək mümkün deyil. Hamı özünü Azərbaycan vətəndaşı, azərbaycanlı hesab edir. Bu birlik özünü 44 günlük Vətən müharibəsində də göstərdi".

Həmsöhbətimiz deyir ki, Azərbaycan yüksək milli və dini dözümlülüyü ilə fərqlənən dövlətdir. Həmçinin mütərəqqi tarixi ənənələri və beynəlxalq birlik tərəfindən təsdiq olunan tolerantlıq mühiti ilə seçilən nümunəvi ölkələr sırasındadır. Milli və dini dözümlülük Azərbaycanın dövlət siyasətinin tərkib hissələrindən biridir.

"Hazırda ölkəmizdə fəaliyyət göstərən Milli və Dini İcmalar, İctimai Birliklər var. Onlardan biri də Azərbaycan-Avar İctimai Birliyidir. Mən Birlik sədri olaraq qəti şəkildə deyə bilərəm ki, Azərbaycan azsaylı xalqların heç bir ayrıseçkilik qoyulmadan yaşadığı ölkələrdəndir"deyə M. Nooyev bildirib.

Birlik rəhbəri deyir ki, ermənilər seperatçılara uymamalı, Azərbaycan xalqı ilə dinc şəraitdə yaşamağa alışmalıdırlar. O, Azərbaycanda yaşayan hər bir azsaylı xalqın özünü azərbaycanlı hesab etdiyini, bu Vətənin müdafiəsi üçün canından belə keçdiyini söyləyir:"44 günlük müharibədə avarlar şəhid verdi. Təkcə Zaqataladan 40-dan çox igidimiz şəhid oldu. Onlar bu torpaq uğrunda ölümə getdilər. Buna isə səbəb onların Azərbaycanı öz vətəni hesab etməsi idi".

M. Nooyev deyir ki, Qarabağda yaşayan ermənilər də bilməlidirlər ki, multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. Azərbaycan xalqı öz ərazisində yaşayan azsaylı xalqlara hörmətlə yanaşır, onlara öz dini baxışlarına görə fərq qoymur. Ölkəmizdə müxtəlif xalqlara məxsus dini məbədlərin qorunub saxlanılması isə bunun aydın təzahürüdür.

"Heç bir etnik qrupun nümayəndəsi özünə qarşı ayrıseçkilik görmür. Azərbaycan vətəndaşı ilə bərabərhüquqlu olduğundan dövlət qurumlarında təmsil olunur. Ermənilər də yaxşı olar ki, bu cür fikirlər səsləndirməzdən öncə Azərbaycanda olan tolerant mühitə nəzər salsınlar. O zaman görəcəklər ki, Qarabağda sülh şəraitində, heç bir ayrıseçkilik hiss etmədən yaşaya bilərlər" deyə avar xalqının nümayəndəsi bildirib.

Qeyd edək ki, İlham Əliyev də Qarabağda yaşayan ermənilərə müraciətində onlara qondarma liderlərinin arxasınca getməməli olduqlarını, bu liderlərin onlara daim yalan danışdığını bildirib: " Mənim Ermənistandakı ermənilərə mesajım belədir ki, biz onların dövləti ilə sülh istəyirik. Onlara digər mesajım ondan ibarətdir ki, hazırkı geosiyasi vəziyyəti və qüvvələr balansını aydın dərk etmək lazımdır.

Uzun illər ərzində Ermənistan liderləri öz xalqını inandırırdılar ki, onlar dünyanın ən güclü ordusuna sahibdirlər, əgər müharibə başlasa, onlar Bakıya çatacaqlar. Müharibə bu hekayələri məhv etdi. Biz nə bu gün, nə də gələcəkdə daha bir müharibə istəmirik. Qarabağ erməniləri başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq onlar normal həyat yaşayacaqlar.

Onlar daha manipulyasiyanın girovu olmayacaqlar. Düşünürəm ki, onlar dinləsələr, məni anlayacaqlar. Onlar bilirlər ki, mən öz sözümə əməl edirəm", - deyə ölkə başçısı bildirib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Dövlət Xidməti 7 ayda 46 fiziki və hüquqi şəxsə qarşı tədbir görüb

***Bu ilin yanvar-iyul aylarında İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti vətəndaş müraciətlərinə əsasən 8 fiziki şəxsi cərimə edib, 38 hüquqi şəxs barəsində tərtib olunmuş protokol və toplanmış materialları aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərib.***

Məlumata görə, inzibati xəta barədə protokollar 24 halda mal satan və ya əhaliyə xidmət göstərən şəxslər tərəfindən malın (xidmətin) ölçüsünə, çəkisinə, hesabına, habelə istehlak xüsusiyyətinə və yaxud keyfiyyətinə dair istehlakçıların az miqdarda aldadılması, 8 halda qanunvericilikdə nəzərdə tutulan hüquqlarla müqayisədə istehlakçının hüquqlarını məhdudlaşdıran şərtlərin müqaviləyə daxil edilməsi, 6 halda satılmış malların dəyişdirilməsi və yaxud geri qaytarılması qaydalarının pozulması, 3 halda dərman vasitəsinin Tarif (qiymət) Şurasının müəyyən etdiyi qiymətdən fərqli qiymətə satılması, 3 halda istehlakçıların hüquqlarının və ya ticarət qaydalarının pozulmasının aradan qaldırılması haqqında istehlakçı hüquqlarının müdafiəsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxslərinin qanuni yazılı tələblərinin yerinə yetirilməməsi, 1 halda ictimai iaşə müəssisəsində istehlakçılara təqdim olunan menyunun düzgün tərtib olunmaması, 1 halda isə istehlakçını maraqlandıran malın (işin, xidmətin) qiyməti, istehlak xassələri, əldə edilməsi şərtləri, təminat öhdəlikləri və iddiaların irəli sürülməsi, malın işlədilməsi, saxlanılması və təhlükəsiz istifadəsi üsulları və qaydaları barəsində satıcı tərəfindən istehlakçıya məlumatın verilməməsi ilə əlaqədar tərtib edilib.

# Baş prokuror Samuxda vətəndaşları qəbul edib

***Avqustun 17-də Baş prokuror Kamran Əliyev Samux Rayon Prokurorluğunun inzibati binasında Samux, Daşkəsən, Kəlbəcər, Göygöl və digər rayonlardan olan vətəndaşları qəbul edib.***



Bu barədə "Unikal"a Baş Prokurorluğun Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 12 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, mülki xarakterli mübahisələr, habelə sosial problemlərlə bağlı qaldırdığı məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra Baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

Həmçinin, Baş prokuror Azərbaycan Prezidentinin 7 may 2021-ci il tarixli Fərmanı əsasında yaradılan və Azərbaycan prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair əməkdaşların təkliflərini dinləyib, eləcə də müzakirələr aparılmaqla müvafiq göstərişlər verib.

# Validеynlər vahid geyimi tikdirə də bilərlər - Direktor



***"Valideynləri məktəbli formaları ilə bağlı məlumatlandırmışıq Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, yeni tədris ilindən məktəblərdə vahid məktəbli forması tətbiq ediləcək".***

Bu sözləri 136 nömrəli tam orta məktəbin direktoru Aysel Şərbətova deyib. O bildirib ki, qeyd olunan məsələyə əsasən, ötən tədris ilində 136 nömrəli tam orta məktəbin Pedaqoji Şurasında məktəbli forması ilə bağlı müvafiq qərar qəbul edilib:

"Valideynlərin də rəyini nəzərə alaraq, təqdim olunan 4 geyim formasından birini seçdik. Seçilən geyim forması barədə məktəbin bütün valideynləri məlumatlandırılıb. Həmçinin valideynlərə tövsiyə olunub ki, onlar özlərinə yaxın olan və ya özlərinin məsləhət bildikləri məntəqədən övladları üçün müvafiq formaları əldə edə bilərlər. Eyni zamanda, onlar öz istəklərinə uyğun olaraq bu formaları tikdirə də bilərlər. Məlum olduğu kimi, paytaxt ərazisində məktəbli formalarının 18 satış məntəqəsi mövcuddur və valideynlərin məlumatlandırılması zamanı bu satış məntəqələrindən hər hansı biri xüsusi fərqləndirilməyib. Bir təhsil işçisi kimi qeyd edim ki, vahid geyim forması şagirdlərə məsuliyyət hissi aşılayır, səliqəli, nizamlı görünüşü təmin edir və məktəbin özünəxas təhsil mühitini formalaşdırır. Həmçinin vahid məktəbli forması şagirdlər arasında sosial bərabərliyi təşviq edir ki, bu da önəmli nüanslardandır".

# Ötən gün 13 nəfər xilas olunub - Nazirlik



***Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi üzərinə düşən vəzifələrinin icrası, o cümlədən əhalinin və ərazilərin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması istiqamətində fəaliyyətini davam etdirir.***

"Unikal" xəbər verir ki, FHN-in Mətbuat xidmətindən verilən məlumata görə, "112" qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında Nazirliyin aidiyyəti qurumları tərəfindən ötən sutka ərzində 81 yanğına çıxış, 11 halda köməksiz vəziyyətdə qalma və 1 avtonəqliyyat qəzası faktı üzrə qəza-xilasetmə əməliyyatları həyata keçirilib. Görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınların operativ söndürülməsi, insanların həyatının xilas olunması təmin edilib.

Ümumilikdə, FHN-in qüvvələri tərəfindən ötən sutka ərzində 1-i azyaşlı olmaqla 13 nəfər, o cümlədən dənizdə çimərkən batma təhlükəsi olan 2 nəfər xilas edilib. Həmçinin, qəza-xilasetmə əməliyyatı zamanı 2 nəfərin meyiti aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.

# Şəhidimizin anası vəfat etdi

***44 günlük Vətən müharibəsində şəhid olan İsə Orucovun anası Nayibə Orucova vəfat edib.***

"Unikal" xəbər verir ki, bu barədə şəhid Vüsal Vəliyevin qardaşı Elyar İslamoğlu sosial şəbəkə hesabında yazıb.

"Şəhid valideynlərinə yenidən ciddi psixoloji dəstək lazımdır. Övlad dərdinə dözə bilmirlər", - o qeyd edib.

Qeyd edək ki, İsə Razim oğlu Orucov 20 iyun 2001-ci ildə Şəmkir rayonu Seyfəli kəndində anadan olub. O, 27 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

# Rezidenturaya qəbul üçün ixtisas seçimi başladı

***Namizədlər müsabiqədə iştirak etmək üçün avqustun 17-dən 22 avqust saat 23:59 dək eservices.dim.gov.az/erizerez/ixtisas1 internet səhifəsinə daxil olaraq ixtisas seçimi edirlər.***

Bu barərə "Unikal"a DİM-dən məlumat verilib. Bildirilib ki, ixtisas seçiminə rezidenturaya qəbul imtahanındakı nəticələri Mərkəz tərəfindən müəyyən edilmiş müsabiqə şərtini ödəyən - ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında 50 və daha çox bal toplayan namizədlər buraxılırlar.

Müsabiqəyə buraxılan namizəd bitirdiyi baza ali tibb təhsili istiqamətinə uyğun ixtisasları seçir, sonra onların kodlarını öz elektron ərizəsindəki ixtisas seçimi formasına istədiyi ardıcıllıqla daxil edib təsdiqləyir. Seçilmiş ixtisasların ərizə formasında göstərilən ardıcıllığı müsabiqə zamanı əsas kimi götürülür və namizəd qəbul imtahanında topladığı bala əsasən müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilir.



Nəzərinizə çatdırırıq ki, "Rezidentura" jurnalının 3-cü nömrəsində "Namizədin elektron ərizəsi"ndə ixtisasların seçimi və təsdiqi üçün təlimat, "Namizədin elektron ərizəsi"ndə ixtisas seçimi formasının nümunəsi, rezidenturaya qəbul aparılan ixtisaslar və onların plan yerləri dərc edilib.

Rezidenturaya qəbul imtahanının II mərhələsinin (ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı) nəticələri haqqında bəzi statistik məlumatları da təqdim edirik.

Avqustun 13-də keçirilən imtahanda namizədlərdən 769 nəfər müsabiqə şərtini ödəyərək (50 və daha çox bal toplayaraq) ixtisas seçiminə buraxılıb. Bu məqamda düzgün qərar qəbul etmək, öz istəyi ilə yanaşı mövcud müsabiqə vəziyyətinin reallığını - ixtisaslar üzrə plan yerlərini, müsabiqədə iştirak edən namizədlərin topladıqları balların paylanmasını diqqətlə araşdırmaq, eləcə də öz fərdi imtahan nəticəsinin bu sıralamadakı yerini düzgün müəyyən etmək seçimin uğurlu olmasına müsbət təsir göstərə bilər.

Aşağıdakı cədvəllərdə istiqamətlər və ballar üzrə histoqramlarla tanış ola bilərsiniz:

Müalicə işi, pediatriya istiqaməti (Hərbi tibb fakültəsinin məzunları nəzərə alınmamışdır)
Minimal bal: 50
Maksimal bal: 87
Namizədlərin sayı:586
Stomatologiya istiqaməti
Minimal bal : 51
Maksimal bal : 81
Namizədlərin sayı : 39

# Tovuz və Göygöldə istirahət mərkəzlərinin sahibləri cərimələndi

Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən keçirilən növbəti nəzarət tədbirləri zamanı Tovuz rayonu ərazisindəki "Nazlı bulaq", Göygöl rayonu ərazisindəki "Göygöl" istirahət mərkəzlərində ətrafa tullantıların atıldığı və çirkab suların axıdıldığı, Ağcabədi şəhərində fəaliyyət göstərən "Ucuzluq" marketdə formalaşan tullantıların isə yandırıldığı müəyyən edilib.

Xidmət rəsmisi Bəhruz Məhəmmədov "Unikal"a bildirib ki, faktlarla bağlı "Nazlı bulaq" istirahət mərkəzinin icarədarı Akif Məhərrəmov, "Göygöl" istirahət mərkəzinin sahibi Məmməd Süleymanov və "Ucuzluq" marketin nümayəndəsi Təbriz İsmayılov barəsində akt, protokol tərtib olunub və qanunamüvafiq tədbirlər görülüb: "Gələcəkdə belə hallara yol verilməməsi üçün hər üç obyektin sahibinə məcburi göstəriş verilib".



# Kamran Əliyev Kəlbəcər və Laçına səfər etdi

***Avqustun 16-da Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Kəlbəcər və Laçın rayonlarında səfərdə olub.***

"Unikal" xəbər verir ki, səfərdə nümayəndə heyətini Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov və Müdafiə Nazirinin müavini - Quru Qoşunlarının komandanı Ənvər Əfəndiyev müşayiət edib.

Səfər çərçivəsində nümayəndə heyəti Kəlbəcər rayon, Kəlbəcər və Laçın hərbi prokurorluqlarının əməkdaşları ilə görüşlər keçirib, onların iş şəraiti ilə yaxından tanış olub.

Görüşlərdə çıxış edən Baş prokuror Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin prokurorluq orqanlarının inkişafına daim diqqət göstərdiyini vurğulamaqla, işğaldan azad edilmiş rayonlarda xidmət edən prokurorluq əməkdaşlarının fəaliyyətinin daha səmərəli və peşəkar təşkil edilməsi üçün maddi-texniki təminat və təchizatın günbəgün daha da yaxşılaşdırıldığını bildirib, onlara tapşırıq və tövsiyələrini verib.



Həmçinin, səfər çərçivəsində Baş Prokurorun rəhbərliyi ilə nümayəndə heyəti Kəlbəcər və Laçın rayonlarında yerləşən hərbi hissələrdə hərbçilərlə görüşüb, onların xidmət və məişət şəraiti ilə maraqlanıb.

Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə edilmiş hərbi-siyasi zəfərin əhəmiyyətindən bəhs edib.

Daha sonra xidmətdə fərqlənən hərbi qulluqçulara Baş Prokuror tərəfindən qiymətli hədiyyələr təqdim olunub.

Bundan başqa, səfər zamanı Baş prokuror və nümayəndə heyəti Kəlbəcər və Laçın rayonlarında həyata keçirilən infrastruktur layihələr, tikinti və quruculuq işləri ilə yaxından tanış olublar.

# Bölgələrdə suvarma üçün beton kanallar çəkilir

***Xaçmazda meliorativ tədbirlər davam edir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, ölkəmizin ən böyük kənd təsərrüfatı rayonlarından olan Xaçmazda yaz-yay suvarma mövsümü davam edir.***

Məlumat üçün bildirək ki, rayon ərazisində suvarılan torpaqların ümumi sahəsi 50 min 286 hektardır. Bu torpaq sahələri kanallar, çaylar, qarasular və bir qisimi də artezian suları ilə suvarılır. Su mənbələri isə Samur-Abşeron və Xan arxı kanalıdır. Su istehlakçılarını vaxtında və itkisiz suvarma suyu ilə təmin etmək məqsədi ilə ötən il rayonda 3500 metr torpaq məcralı kanal beton üzlüyə alınıb. Bu işlərin cari ildə də davam etdirilməsi nəzərdə tutulub.





Beton üzlüyə alınan kanalların üzərində həmçinin xüsusi su ölçmə qurğuları quraşdırılıb. Bu da təsərrafat sahiblərinin lazımi miqdarda su ilə təminatına nəzarət etmək imkanı yaradır. Xaçmaz Suvarma Sistemləri İdarəsinin əməkdaşları tərəfindən hazırda torpaq kanallarda da lil və kol-kosdan təmizləmə işləri həyata keçirilir. Görülən işlər nəticəsində kanalların ötürücülük qabiliyyəti artırılır ki, bu da su itkisinin qarşısını alır. Cari ildə rayon ərazisindəki torpaq kanallarda ümumilikdə 400 min kub metr lildən təmizləmə işi aparılıb.

Görülən işlərin nəticəsidir ki, fermer və təsərrüfat sahibləri vaxtlı vaxtında sahələrini suvara bilirlər. Bu da öz növbəsində məhsuldarlığın yüksəldilməsinə təsir edir.

Qeyd edək ki, Xaçmaz rayonunda sahələri suvarmaq üçün 2194 kilometr uzunluğunda təsərrüfatdaxili və təsərrüfatlararası suvarma kanalından istifadə edilir. Bu kanalların 1788 kilometri torpaq 289 kilometri isə beton məcralıdır.

Ucarda beton kanal çəkilir. Dilqəm Şərifov bildirib ki, Meliorasiya və Su Təsərrüfatı ASC-nin tabeliyində olan Bakı İxtisaslaşmış Elektrik Avadanlıqlarının Təmir-Quraşdırma-Sazlama Tikinti İdarəsi tərəfindən Ucar rayonu ərazisində olan Məlikliballı və Qazıqumlaq torpaq məcralı kanalının beton üzlüyə alınması işləri həyata keçirilir.

Görülən işlər rayonda suvarmanın mütəşəkkil aparılmasına xidmət edəcək, su itkisi minimuma endiriləcək. Ümumi uzunluğu 1800 metr olan kanal 2 kənddə 1500 hektara yaxın əkin sahəsini suvarma suyu ilə təmin edir. Hazırda kanalda son tamamlanma işləri yerinə yetirilir.

Qeyd edək ki, Bakı İxtisaslaşmış Elektrik Avadanlıqlarının Təmir-Quraşdırma-Sazlama Tikinti İdarəsi Ucar rayonu ilə yanaşı Lənkaran rayonunun Xanbulançay Su Anbarında 5 nömrəli nasos stansiyasından çıxan təziqli boru xəttlərinin çəkilməsi, Ağdaş rayonunda torpaq məcralı kanalın beton üzlüyə alınması və Tovuz rayonunun Ağdam kəndində su anbarının bərpa işlərini həyata keçirir.

Ağsuda torpaq məcralı kanal beton üzlüyə alınır. Dilqəm Şərifov bildirib ki, Ağsu Suvarma Sistemləri İdarəsi 2023-cü ilin tədbirlər planına uyğun olaraq meliorativ tədbirlərini davam etdirir. Bu məqsədlə ilin əvvəlindən etibarən bütün hazırlıq işləri yekunlaşıb. 37 min hektardan artıq əkin sahəsinə xidmət edən idarənin balansında 974 km suvarma kanalı mövcuddur. Bundan 74 km-i beton kanallardır. Yerdə qalan hissə isə torpaq məcralıdır. Torpaq kanallarda isə su itkiləri daha çox olur. Bunun qarşısını almaq məqsədilə hər il kanallar beton üzlüyə alınır. Növbəti belə işlərdən biri rayon ərazisində əkin sahələrinin böyük bir hisssəsini su ilə təmin edən, ümumi uzunluğu 35.6 km olan Maşın Qolu kanalında aparılır.

Son illər Ağsu rayonunda əkilən kənd təsərrüfatı bitkilərinin vaxtında suvarılması məhsuldarlığın da artmasına səbəb olub. Fermerlər artıq asanlıqla kanallardan götürdükləri suyu öz sahələrinə çatdıra bilirlər.

Ağsu Suvarma Sistemləri İdarəsinin balansında olan kanallarda ilin əvvəlindən etibarən lildən təmizləmə işləri də davam edir. Bundan başqa kanallar üzərində olan hidrotexniki qurğular, balansda olan 33 ədəd subartezian quyuları da təmir olunur.

Qeyd edək ki, Ağsu Suvarma Sistemləri İdarəsinin əsas su mənbələri Girdimançay, Ağsu çay, Yuxarı Şirvan kanalı, onun Ağsu Maşın Qolu kanalı və Cavanşir su anbarıdır. Bundan başqa idarənin balansında sel sularından mühafizə məqsədilə 7 km daş-beton bəndlər də mövcuddur.

*Hüseyn İsgəndərov*

# Beyləqanda tarla seminarı keçirildi

***Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun Mil Təcrübə stansiyasında "Yerli və introduksiya olunmuş pambıq sortlarının quraqlığa, xəstəliklərə və şoranlığa davamlılığı" mövzusunda tarla seminarı keçirilib.***



"Unikal" xəbər verir ki, tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri İmran Cümşüdov, Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru İbrahim Cəfərov, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyinin (AEBA) layihə koordinatoru Nəzakət İsmayılzadə, Dövlət Aqrar İnkişaf Mərkəzlərinin əməkdaşları, pambıqçı fermerlər, ölkəmizdə pambıq istehsalı ilə məşğul olan şirkətlərin nümayəndələri iştirak ediblər.

Tarla seminarında Atom Enerjisi üzrə Beynəlxalq Agentlik ilə əməkdaşlıq çərçivəsində Pakistandan ölkəmizə gətirilən toxum sortlarının və yerli sortların əkildiyi sahələrə baxış keçirilib, müvafiq sortların xəstəlik və zərərvericilərə, quraqlığa, şoranlığa davamlılıq məsələləri qiymətləndirilib, mümkün bioloji məhsul hesablanıb. Qeyd olunub ki, Pakistandan gətirilən "Super Cotton" sortu bütün bioloji, məhsuldarlıq və texniki göstəricilərinə görə digər sortlardan üstünlüyü ilə fərqlənir. Bu sort üzrə təcrübə əkinlərində orta məhsuldarlığın 85-90 s/ha olması gözlənilir. İnstitutun xətti ilə bu sortun toxumları becərilmə üçün bir sıra fermerlərə və pambıqçılıq ilə məşğul olan MMC-lərə də paylanılıb. Seminar iştirakçıları "Super Cotton" sortuna böyük maraq göstərib, gələn ilin əkinləri üçün toxum sifarişləri veriblər.

Qeyd edək ki, Kənd Təsərrüfatı Nazirliyinin Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA) ilə əməkdaşlıq çərçivəsində 2017-2021-ci illəri əhatə edən "Xəstəliklərə, quraqlığa və şoranlığa davamlı mutant pambıq xətlərinin yaradılması" layihəsi üzrə işlər başa çatıb.

2021-ci ildən isə "Azərbaycanda pambıq istehsalı üzrə torpaq, qida maddələri və su ilə bağlı ağıllı kənd təsərrüfatının genişləndirilməsi" layihəsi üzrə işlərə başlanılıb. Hər iki layihə çərçivəsində Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutuna AEBA tərəfindən müvafiq laboratoriya avadanlıqları verilib.

# ASC informasiya sistemlərini qismən "Hökumət buludu"na köçürüb

***"Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanının icrası məqsədilə həyata keçirilən "Hökumət buludu"na Keçid Planına əsasən dövlət qurumları ilə işlər davam etdirilir.***

"Unikal" xəbər verir ki, fəaliyyət çərçivəsində dövlət qurumlarının informasiya sistemlərinin Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan "AzInTelecom" MMC-yə məxsus Bakı və Yevlax Data mərkəzlərinə tam və ya qismən miqrasiyası həyata keçirilir.

Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti "Hökumət buludu"na miqrasiya çərçivəsində "AzInTelecom" MMC-nin təqdim etdiyi IaaS (İnfrastructure-as-a-Service) bulud infrastrukturu xidmətini əldə edib. ASC informasiya sistemlərini qismən "AzInTelecom" MMC-yə məxsus Data Mərkəzində yerləşdirməklə kritik sistemlərinin yüksək əlçatanlığını təmin edib.

İlkin mərhələdə ASC-nin ümumi infrastrukturunun qiymətləndirilməsi nəticəsində hesabat hazırlanıb və bunun əsasında İT sistemlərin miqrasiyası üçün konsultasiya xidməti verilib, həmçinin miqrasiya prosesini əks etdirən Yol Xəritəsi formalaşdırılıb.

Meliorasiya və Su Təsərrüfatı ASC məlumatların təhlükəsiz saxlanılması məqsədilə Rezervlənmə (BaaS-Backup as a Service) bulud xidmətindən də yararlanıb. Bu xidmət daxilində təqdim edilən funksionallıqları daha çevik və sadə formada idarə etmələri məqsədilə dövlət qurumu komitə mütəxəssislərini "Veeam" platforması ilə təmin edib.

Meliorasiya və Su Təsərrüfatı ASC həmçinin "AzInTelecom" MMC tərəfindən SPLA lisenziyalı Microsoft məhsulları ilə də təmin olunub.

Bununla yanaşı, informasiya sistemlərinin təhlükəsizliyinin daha da təkmilləşdirilməsinə, sabit və dayanıqlı İT infrastrukturuna, operativ koordinasiya ilə yüksək keyfiyyətli servis təminatı və 24/7 monitorinq xidmətinə nail olunur.

"AzInTelecom" MMC Azərbaycan və Cənubi Qafqaz regionunda "TIER III" Beynəlxalq uyğunluq sertifikatına malik ilk qurumdur. Bundan əlavə, "ISO 20000", "ISO 22301" və "ISO 27001" sertifikatlarının tələblərini ödəyən, Bakı və Yevlaxda yerləşən 2 Data Mərkəzinə malikdir.



# Ukraynanın "Azov" batalyonu döyüş bölgəsinə qayıtdı

***"Azov" batalyonunun döyüşçüləri sağalaraq döyüş bölgəsinə qayıdıblar.***

"Unikal" Strana.ua-ya istinadən xəbər verir ki, bunu Ukrayna Milli Qvardiyasının nümayəndəsi Nikolay Urşaloviç deyib.

Urşaloviç aydınlaşdırıb ki, hazırda xüsusi təyinatlılar briqadası Lisiçanskın şimal-qərbində yerləşən Serebryanski meşə təsərrüfatı ərazisində mövqe tutur.

# "Avropanın Rusiyaya ehtiyacı var" - Sarkozi



***""Diplomatiya, müzakirələr və danışıqlar" Rusiya və Ukrayna arasında münaqişənin həllinin "yeganə yollarıdır" və bu, Moskvaya təzyiq göstərməyə çalışan Avropa ölkələrinin səylərinin mərkəzində olmalıdır".***

"Unikal" xəbər verir ki, bunu Fransanın keçmiş prezidenti Nikola Sarkozi "Le Figaro" qəzetinə müsahibəsində deyib.

Sarkozi Rusiyanın Ukraynada hərbi əməliyyata başlamaq qərarını pisləyib, lakin Moskvanın Avropanın qonşusu olduğunu vurğulayıb. "Və tarixdəki anlaşılmazlıqlara baxmayaraq, bizim onlara, onların da bizə ehtiyacı var", - eks-prezident vurğulayıb.

Həmin müsahibədə Sarkozi Avropa İttifaqını Ukrayna ilə bağlı strategiyanı aydınlaşdırmağa və bu münaqişədə ABŞ-ın maraqlarına uymamağa çağırıb.

***Gülayə***

# Ermənistanda Türkiyə vətəndaşını azərbaycanlı bilib tutdular

***Ermənistanın Tavuş vilayətində İcevan-Açacur avtobusunda telefonla türkcə danışan şəxs tutulub.***

"Unikal" erməni KİV-lərinə istinadən xəbər verir ki, sərnişinlər sürücüdən avtobusu saxlamağı tələb edib və polisə müraciət ediblər.

Onlar şübhəli şəxsin azərbaycanlı olduğunu düşünüblər, lakin polis onun azərbaycanlı deyil, Türkiyə vətəndaşı olduğunu müəyyən edib: "O, Türkiyədən idi, polislər gəlib şöbəyə apardılar".

Avtobusun sürücüsü qeyd edib ki, türkcə sözlər eşidən sərnişinlər qorxaraq qışqırmağa başlayıblar.

***Ağarza Elçinoğlu***

# Pakistanda xristianlara hücum edən 100-dən çox müsəlman həbs edildi

***Pakistanın şərqində kilsələrə və xristian azlıqların evlərinə hücum edən 100-dən çox müsəlman həbs edilib.***

"Unikal" xarici mediaya istinadən xəbər verir ki, müsəlmanların hücumuna xristianlardan birinin Quranı yandırması səbəb olub.

Onlar da buna cavab olaraq kilsəni və evləri yandırıblar. Xristian icmasının nümayəndələrinin 20-yə yaxın evi dağıdılıb.

***Nuranə***

# Belarus Ukrayna ilə hərbi-texniki əməkdaşlıq müqaviləsini ləğv edib

***Belarus hökuməti Ukrayna ilə hərbi-texniki əməkdaşlığa dair hökumətlərarası sazişi ləğv edib.***

"Unikal" xəbər verir ki, bu barədə Belarusun Milli Hüquq İnternet Portalında rəsmi məlumat dərc edib.



"Belarus Nazirlər Kabineti ilə Ukrayna hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında saziş denonsasiya edilsin", - sənəddə deyilir.

Müqavilə təxminən otuz il əvvəl - 1994-cü il dekabrın 16-da Belarus paytaxtında tərəflər tərəfindən imzalanıb.

***Gülayə Mecid***

# İran son 7 ildə ilk dəfə bu ölkəyə XİN rəhbərini göndərir

***İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian Səudiyyə Ərəbistanına bir günlük səfərə gedib.***

"Unikal" xəbər verir ki, bu barədə İran Xarici İşlər Nazirliyinin Teleqram kanalında məlumat verilib.

Xarici İşlər Nazirliyi Abdullahianın Səudiyyə Ərəbistanına səfəri zamanı ikitərəfli münasibətlərin müxtəlif məsələlərini gündəmə gətirəcəklərini, həmçinin hər iki ölkə üçün aktual olan regional və beynəlxalq gündəlikdəki problemləri müzakirə edəcəklərini qeyd edib.

Ər-Riyadla Tehran arasında münasibətlər 2015-ci ilin yazında pisləşib. Buna səbəb Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi koalisiyanın Yəməndə keçirdiyi hərbi əməliyyat olub. 2016-cı ilin yanvarında Səudiyyə Ərəbistanının Tehrandakı səfirliyinə edilən hücumlardan sonra krallıq İranla diplomatik əlaqələri kəsib. Abdullahian son 7 ildə İranın krallığa səfər edən ilk xarici işlər naziri olub.

***Nuranə Abbasova***



# Avstriyada salmonella epidemiyası qeydə alınıb

***Avstriyanın Tirol əyaləti istisna olmaqla, ölkənin bütün federal əyalətlərində salmonella epidemiyası müşahidə olunur.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə ölkənin Sağlamlıq və Qida Təhlükəsizliyi Agentliyi məlumat yayıb.

Xəstəliyin Polşadan gətirilən toyuq kababının istehlakı ilə bağlı olduğu güman edilir.

"Hazırda Avstriyada şiş kababı hazırlamaq üçün istifadə edilən Polşadan gətirilən Salmonella ilə



çirklənmiş toyuq əti ilə əlaqəli qida yoluxma halları var. Tirol istisna olmaqla, bütün federal ştatlarda ümumilikdə 27 nəfər xəstələnib", - bəyanatda deyilir.

Bildirilir ki, 2023-cü ilin fevral ayından başlayaraq Avstriyada 10-64 yaş arasında olan 14 nəfər Salmonellanın spesifik ştammı - Salmonella Enteritidis ST11 CT9791 ilə xəstələnib. Ölkədə belə bir xəstəliklə bağlı sonuncu məlum hadisə 2023-cü ilin mayında qeydə alınıb.

***Gülayə Mecid***

# Trampın işinə baxan hakimi öldürməklə hədələdilər

***Amerika hüquq-mühafizə orqanlarının əməkdaşları ABŞ-ın keçmiş prezidenti Donald Trampa qarşı cinayət işlərindən birinə baxan hakimi öldürməklə hədələyən Texas ştatından olan qadını saxlayıblar.***

"Unikal" xəbər verir ki, bu barədə BBC məlumat yayıb.

Qeyd olunur ki, 43 yaşlı Abigail Co Sri avqustun 5-də Vaşinqtonda məhkəməyə zəng edib. Danışıq zamanı Sri Trampa qarşı işə baxan hakim Tanya Çutkana "Biz sizi öldürmək istəyirik. Əgər Tramp 2024-cü ildə seçilməsə, səni öldürməyə gələcəyik", - deyib. O, həmçinin Hyuston merliyinə namizədliyini irəli sürən Texasdan demokrat, konqresmen Şeyla Cekson Lini öldürməklə hədələyib.

***Gülayə Mecid***



# Liviya Türkiyənin Əl-Xums limanını 99 illik icarəyə götürməsini təkzib etdi

***Türkiyə Müdafiə Nazirliyinin Liviyanın şərqindəki Əl-Xums limanını icarəyə götürməsi ilə bağlı yayılan xəbərlər doğru deyil.***

"Unikal" xəbər verir ki, bunu "RİA Novosti"yə açıqlamasında Liviya hökumətinin nümayəndəsi Məhəmməd Hamuda deyib.

Bundan əvvəl TGRT kanalı



Türkiyənin Liviya limanını 99 il müddətinə icarəyə götürdüyünü, burada pilotsuz təyyarələr və hava hücumundan müdafiə sistemləri ilə öz hərbi bazasını yerləşdirməyə hazırlaşdığını bildirib.

Hamuda yayılan məlumatların yanlış olduğunu vurğulayıb. "Bu doğru deyil", - deyə o vurğulayıb.

***Ağarza Elçinoğlu***

# Neymar Səudiyyə klubuna keçməsinin səbəbini açıqladı



***"Barselona"nın və Paris Sen-Jermenin (PSJ) keçmiş futbolçusu Neymar Səudiyyə Ərəbistanının "Əl-Hilal" komandasına transferinin səbəbini açıqlayıb.***

"Unikal" xarici mediaya istinadən xəbər verir ki, futbolçu bu qərara Kriştiano Ronaldonun "Əl-Nəsr"ə keçməsindən sonra verdiyini deyib.

"Bütün bunları Kristiano Ronaldo başlatdı, baxmayaraq ki, onu bu qərarına görə dəli adlandırırdılar. Bu gün Səudiyyə Ərəbistanı çempionatının getdikcə necə böyüdüyünü görürsünüz. Xüsusilə yay transfer pəncərəsindəki bütün transferlərdən sonra liqa çox rəqabətli olacaq. Rəqabət mənim üçün çox önəmlidir, ona görə də bura gəldim. Başqa komandaların yüksək keyfiyyətli oyunçuları ilə tanış olmaq imkanı məni həyəcanlandırır və daha da yaxşı oynamağa vadar edir və təbii ki, Ronaldo, Benzema və Firminoya qarşı matçlar daha həyəcanlıdır", - braziliyalı futbolçu bildirib.

Neymarın "Əl-Hilal"ın futbolçusu kimi təqdimatı avqustun 19-da baş tutacaq.

***Nuranə Abbasova***

# AFFA İntizam Komitəsinin qərarları

***AFFA-nın İntizam Komitəsinin iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasda Misli Premyer Liqasının 2-ci turundakı qayda pozuntuları ilə bağlı qərarlar qəbul edilib.

"Araz-Naxçıvan" - "Qəbələ" qarşılaşmasında "Qəbələ"nin futbolçusu Ülvi İsgəndərov təcavüzkar davranışa görə birbaşa qırmızı vərəqə aldığı üçün 2 oyunluq cəzalandırılıb, klub 2000 manat cərimə edilib.

"Neftçi" - "Səbail" oyununda "Səbail" 2-ci hissəyə gec çıxdığına görə 1500 manat cərimə edilib. "Səbail"in 5 futbolçusu sarı vərəqə ilə cəzalandığına görə klubu 700 manat ödəyəcək. Həmçinin "Səbail"in baş məşqçisinin köməkçisi Elmir Xankişiyev meydana kənar əşya atdığına görə 2 oyun şərti olmaqla 4 oyun cəzalandırılıb, klub 3500 manat cərimə edilir. Sınaq müddəti 3 ay təyin olunub.

"Neftçi"nin baş məşqçisi Adrian Mutu "A buraxılışı" vəsiqəsindən istifadə etmədiyinə görə "Neftçi" 500 manat cərimənib.




# Azərbaycan boksçularından rekord

***Boks üzrə yeniyetmələrdən ibarət Azərbaycan millisi yeni rekorda imza atıb.***

Komanda bu uğura Belarusda keçirilən II MDB Oyunlarında imza atıb.

Yığmanın heyətində Aynur Mikayılova (54 kq), Məhəmmədəli Qasımzadə (60 kq), Ziya Həsənov (71 kq) və Fərhad Şeydayev (75 kq) gümüş medal qazanıb. Ömər Aslanlı (54 kq), Aslan Quliyev (63,5 kq), Lalə Mədətova (48 kq), Aysu İsmayılova (50 kq), Nərmin Əlizadə (52 kq) və Qızbəs İsgəndər (60 kq) Oyunları bürünc mükafatla bitiriblər. Bununla da I MDB Oyunları ilə müqayisədə medalların sayında ikiqat yüksəliş qeydə alınıb.



Komanda 4 gümüş və 6 bürünc medal əldə etməklə ikinci ilki də rəsmiləşdirib. Boksçularımız mükafat sayı ilə yanaşı, medalların əyarında da rekord müəyyənləşdirib. Bundan əlavə, Orşa şəhərində baş tutan yarışda qızlardan ibarət yığma 3 medalı 5-ə, oğlanlardan ibarət komanda 2 mükafatı 5-ə yüksəldib.

2 il öncə Rusiyanın Kazan şəhərində keçirilən I MDB Oyunlarında isə boksçularımızın qazancı 5 "bürünc" olub. Belarusda, həmçinin 4 gümüş medal əldə etməklə, mükafatların əyarında da ilk yaşanıb.

# Misli Premyer Liqasında 3-cü turun hakimləri açıqlandı

***Misli Premyer Liqasında 3-cü turun oyunlarına hakim təyinatları açıqlanıb.***

Qol.az PFL-in saytına istinadən xəbər verir ki, görüşləri adları aşağıda qeyd olunan hakimlərə tapşırılıb:

18 avqust (cümə)
17:00. "Kəpəz" - "Turan Tovuz"
Hakimlər: Cavid Cəlilov, Zöhrab Abbasov, Şirmamed Mamedov, Əli Əliyev
Gəncə şəhər stadionu

19 avqust (şənbə)
18:00. "Qəbələ" - "Sumqayıt"
Hakimlər: Kamranbəy Rəhimov, Kamran Bayramov, Rəhman İmami, Kamran Əliyev
Qəbələ şəhər stadionu

20:00. "Səbail" - "Zirə"
Hakimlər: İnqilab Məmmədov, Namiq Hüseynov, Teymur Teymurov, Fərid Hacıyev
"ASCO Arena"

20 avqust (bazar)
18:00. "Qarabağ" - "Araz-Naxçıvan"
Hakimlər: Nicat İsmayıllı, Cəmil Quliyev, Eyyub İbrahimov, Kamal Umudlu
"Azərsun Arena"

20:00. "Sabah" - "Neftçi"
Hakimlər: Əliyar Ağayev, Zeynal Zeynalov, Elşad Abdullayev, Rauf Cabarov
"Bank Respublika Arena"

# Qvardiola bunu bacaran ilk məşqçidir



***"Mançester Siti"nin baş məşqçisi Xosep Qvardiola yeni uğura imza atıb.***

Qol.az xəbər verir ki, bu barədə UEFA-nın saytı məlumat yayıb. Mütəxəssis tarixdə 3 klubla UEFA Superkubokunu qazanan ilk məşqçi olub.

Ötən gecə onun komandası UEFA Superkuboku uğrunda görüşdə "Sevilya"ya qalib gəlib (1:1, penaltilər seriyası - 5:4).

Əvvəllər Qvardiola 2009-cu və 2011-ci ildə "Barselona" ilə, 2013-cü ildə isə "Bavariya" ilə bu kuboku qazanıb.

Qeyd edək ki, Pep 2016-cı ildən "şəhərlilər"in baş məşqçisidir.

# "Qəbələ"nin futbolçusu cəzalandırıldı

***AFFA İntizam Komitəsi "Qəbələ"nin futbolçusu Ülvi İsgəndərovu iki oyunluq cəzalandırıb.***



"Unikal" AFFA-nın saytına istinadən xəbər verir ki, komitənin bugünkü iclasında belə qərar qəbul edilib. Buna səbəb hücumçunun Misli Premyer Liqasının 2-ci turunda "Araz-Naxçıvan"la matçda təcavüzkar davranışa görə birbaşa qırmızı vərəqə alması olub.

Məsələyə görə "Qəbələ" 2000 manat cərimələnib.

Qeyd edək ki, "Qəbələ" sözügedən matçda "Araz-Naxçıvan"aa 0:2 hesabı ilə uduzub.

# İdman gimnastikası üzrə Azərbaycan yığması beynəlxalq turnirdə iştirak edəcək



***İdman gimnastikası üzrə Azərbaycan milli komandasının üzvləri Misirin paytaxtı Qahirəyə yola düşüblər.***

Bu barədə "Unikal"a Azərbaycan Gimnastika Federasiyasından məlumat verilib.

Aytən Məmmədova, Duyğu Məcidzadə, Aydın Əlizadə, Rəsul Əhmədzadə, Mənsum Səfərov, Nəzrin Hümbətova, Aynaz Məcidzadə, Xədicə Abbaszadə, Leyla Məmmədzadə, Albina Alieva və Dəniz Əliyevanın yer aldığı yığma "Pharaoh's Cup" turnirində iştirak edəcək.

Qeyd edək ki, yarış avqustun 18-dən 20-dək keçiriləcək.

# "Qarabağ" Avropa Liqasında pley-offa yüksəldi

***"Qarabağ" UEFA Avropa Liqasının III təsnifat mərhələsində cavab oyununu keçirib.***



"Unikal" xəbər verir ki, Qurban Qurbanovun baş məşqçisi olduğu komanda Finlandiyada HİK-in qonağı olub.

"Bolt Arena"dakı qarşılaşma "köhlən atlar"ın 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Komandanın qollarını 45+3-cü dəqiqədə penaltidən Toral Bayramov, 56-cı dəqiqədə Yassin Benzia vurub. Meydan sahiblərində Santeri Hostikka 11-ci dəqiqədə fərqlənib. Kevin Kuassivi-Benissan isə 17-ci dəqiqədə ikinci sarı vərəqəni alaraq Helsinki klubunu azlıqda qoyub.

İlk matçda da rəqibini eyni hesabla üstələyən "Qarabağ" UEFA Avropa Liqasının pley-offuna yüksəlib. Ağdamlılar bu raundda Sloveniya çempionu "Olimpiya" ilə üz-üzə gələcək.